## PREZİDENT İLHAM ƏLİYEV İRAN SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan-İran ikitərəfli münasibətlərinin son illər ərzində...

Bax səh. 2

## AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA FRANSANIN SABİQ PREZİDENTİ NİKOLA SARKOZİ İLƏ GÖRÜŞÜB



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva yanvarın 16-da Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Nikola Sarkozinin prezidentlik fəaliyyəti dövründə Fransa-Azərbaycan əlaqələrinin uğurlu inkişafında xanım Mehriban Əliyevanın...

Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 17 yanvar 2019-cu il, cümə axşamı / № 010 (5385). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev Sumqayıtda “SOCAR karbamid” zavodunun açılışında iştirak edib





## Prezidentin iş günü

Prezident İlham Əliyev Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb.

## Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov ölkədə hava şəraitinin kəskin pisləşəçəyi ilə əlaqədar yanvarın 17-də və 18-də respublika ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində təlim-tərbiyə prosesinin dayandırılması barədə Sərəncam imzalayıb.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

## “Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi (XVII əsr-XVIII əsrin ilk dörddəbiri)” kitabının təqdimatı olub



Yanvarın 16-da Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Qafqazşünaslıq İnstitutunun təşkilatçılığı ilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri...

Bax səh. 3

## İdarəetmədə sistemli islahatlar: struktur yeniliklərində növbəti mərhələ

Azərbaycanda demokratik dövlət quruculuğu kursunun əsasını Ulu öndər Heydər Əliyev qoyub. Bu prosesi Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlət başçısı həm ölkənin daxili tarixi təkamül dinamikasını, həm də dünya təcrübəsini nəzərə alaraq davamlı islahatlar həyata keçirir. Həmin bağlılıqda Prezident İlham Əliyevin yanvarın 14-də imzaladığı Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərmanı ciddi əhəmiyyət daşıyır. Ekspertlər həmin Fərmandan irəli gələn vəzifələri həm dövlət quruculuğu kursunun inkişaf etdirilməsi çərçivəsində, həm bütövlükdə idarəetmədə aparılan islahatların...

Bax səh. 5



## FRANSANIN SABİQ PREZİDENTİ AZƏRBAYCAN-FRANSIZ UNİVERSİTETİNDƏ OLUB

Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ölkəmizə səfəri çərçivəsində yanvarın 16-da Azərbaycan-Fransız Universitetində (UFAZ) olub. AZƏRTAC xəbər verir ki, Nikola Sarkozi əvvəlcə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin...

Bax səh. 4

## QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ 20 YANVAR FACİƏSİNİN 29-CU İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BƏYANAT YAYIB

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar bəyanat yayıb. Bu barədə AZƏRTAC-a QMİ-nin mətbuat xidmətindən məlumat verilib. Bəyanatda deyilir: “Azərbaycan xalqına qarşı dəhşətli cinayət - tarixi yaddaşımıza dərin hüzn, eyni zamanda, milli qürur və qəhrəmanlıq məktəbi kimi həkk olunmuş Qanlı Yanvar faciəsinin 29-cu ildönümü ərəfəsindəyik. Şəhidlərimizin əziz xatirəsi qarşısında illərdən bəri ürəklərimizdə gəzdirdiyimiz vətəndaşlıq qüruru və qan yaddaşımızı əsrlər belə silmək iqtidarında deyil. Azərbaycan dövlətçiliyinin bərpası uğrunda qurban getmiş, Allah-Təala nəzərində ən yüksək məqamlardan sayılan şəhidlik zirvəsinə ucalmışlara xalqımızın ehtiramı tükənməz, əbədidir. Qan yaddaşımızda əbədi yaşayacaq 20 Yanvar günü bütün faciəsi ilə yanaşı, xalqımızın milli müstəqillik, azadlıq uğrunda şəhidliyə hazırlıq ruhunun...

Bax səh. 6



## İRAN SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ MİLLİ MƏCLİSDƏ OLUB

Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov yanvarın 16-da İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov...

Bax səh. 4

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində ötən ilin yekunları müzakirə edilib



Yanvarın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) 2018-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib. Komitədən AZƏRTAC-a bildiriblər ki, iclasda kollegiya üzvləri ilə yanaşı...

Bax səh. 5

## Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər davam etdirilir

Təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə...



Bax səh. 4

## Azərbaycan-İran hərbi əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun dəvəti ilə İran İslam Respublikası Silahlı Qüvvələrinin...



Bax səh. 3

## BDU-da İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri imtahan prosesini izləyiblər

Bakı Dövlət Universiteti rektorluğu yanında İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri, Milli Məclisin deputatları, təhsil ekspertləri...



Bax səh. 4

## “Bakı-2019”a hazırlıqla bağlı Koordinasiya Komissiyasının texniki görüşü keçirilib

İyulun 20-28-də Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalına hazırlıqla bağlı görülmüş işlərə nəzər salmaq və gələcək addımları...



Bax səh. 4

# Prezident İlham Əliyev İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan-İran ikitərəfli münasibətlərinin son illər ərzində bütün sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini bildirib. Siyasi əlaqələrimizin bu gün ən yüksək pilləyə qalxdığını deyən Prezident İlham Əliyev son illər ərzində prezidentlər səviyyəsində 10-dan çox görüşün keçirilməsinin münasibətlərin inkişafında xüsusi rolunu qeyd edib. Dövlətimizin başçısı digər səviyyədə qarşılıqlı səfərlərin də əlaqələrin genişləndirilməsi baxımından önəmini vurğulayıb. Xalqlarımızın əsrlər boyu mehriban qonşuluq şəraitində yaşadığını deyən Prezident İlham Əliyev Azərbaycan-İran dostluq və qardaşlıq münasibətlərinin qarşıdakı illərdə də uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib.

İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqeri Prezident Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırıb. Məhəmməd Baqeri bildirib ki, İranın Ali Rəhbəri ölkələrimiz və xalqlarımız arasında əlaqələrin bundan sonra daha çox güclənməsini zəruri hesab edir. Qonaq qeyd edib ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş inkişaf, əmin-amanlıq və sabitlik İran xalqı tərəfindən sevinclə qarşılanır. O, xalqlarımızın əsrlər boyu müştərək tarixə və mədəniyyətə malik olduğunu deyib və əlaqələrimizin bu gün də uğurla inkişaf etdiyini vurğulayıb.

Məhəmməd Baqeri bildirib ki, İran Qarabağ torpaqlarını Azərbaycan torpaqları hesab edir, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bundan sonra da dəstəkləyəcək, sərhədlərin zor gücü ilə dəyişdirilməsi qəbuledilməzdir, İran bu məsələdə hər zaman Azərbaycanın yanındadır.

Prezident İlham Əliyev bu qardaşlıq mövqeyinə görə onun təşəkkürlərinin İran rəhbərliyinə çatdırılmasını xahiş edib və Azərbaycanın İran tərəfinin bu ədalətli mövqeyini yüksək qiymətləndirdiyini bildirib. Dövlətimizin başçısı işğal edilmiş ərazilərdə Azərbaycanın tarixi-dini abidələrinin ermənilər tərəfindən dağıdılması barədə Məhəmməd Baqerini məlumatlandırıb.

Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş edib.

# Prezident İlham Əliyev Sumqayıtda “SOCAR karbamid” zavodunun açılışında iştirak edib

Yanvarın 16-da Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunmuş “SOCAR karbamid” zavodu istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və zavodun direktoru Xəyal Cəfərov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat veriblər.





Qeyd edək ki, karbamid zavodunun layihəsi Prezident İlham Əliyevin 2008-ci ilin avqustunda imzaladığı Sərəncamla təsdiq edilmiş “2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”na və 2014-cü ilin dekabrında imzaladığı Sərəncamla təsdiq edilmiş “Sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”na əsasən icra edilib. Təməli 2011-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulan zavodun tikintisi ilə əlaqədar elan olunan beynəlxalq açıq tenderin nəticələrinə əsasən 2012-ci ildə Koreya Respublikasının “Samsung Engineering” şirkəti mühəndislik, satınalma və tikinti üzrə podratçı seçilib. Layihənin ammonyak və karbamid istehsalı üzrə texnoloji avadanlığı müvafiq olaraq Danimarka və Hollandiya şirkətləri tərəfindən təmin edilib. Həmçinin layihənin idarə edilməsi və müstəqil təftiş xidmətlərinin həyata keçirilməsi məqsədilə 2015-ci ildə Finlandiya şirkəti ilə müvafiq müqavilə imzalanıb. Tikintinin pik vaxtında zavodun inşasına, ümumilikdə, 3600 nəfərdən artıq işçi cəlb olunub. İnşaat zamanı təhlükəsizlik tələblərinə maksimum dərəcədə riayət edilib, iş həcmi qəzasız şəraitdə yerinə yetirilib.



Məlumat verilib ki, “SOCAR karbamid” zavodunun istehsala başlaması azot gübrəsi idxalına ehtiyacı aradan qaldıracaq, bununla da ölkənin xarici valyuta xərcləri azalacaq. Zavod ildə 435 milyon kubmetr təbii qaz həcmindən xammal kimi istifadə etməklə 650-660 min ton karbamid məhsulu istehsal etmək gücündədir. İstehsal həcminin 70 faizi ixrac üçün nəzərdə tutulur ki, bu da ölkəyə hər il 160 milyon dollara qədər əlavə gəlirin daxil olmasına imkan verəcək. Bu zavodun işə düşməsi Azərbaycanda kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq. Belə ki, karbamid gübrəsi ən yüksək azot tutumuna malikdir və buna görə də ən keyfiyyətli azot gübrəsi hesab olunur. Suda tez həllolma qabiliyyətinə görə seçilən bu gübrə növü ammonyak və karbon dioksidin sintezi nəticəsində əldə edilir. Karbamidə tələbat onun aşağı maya dəyəri, qənaətcil daşınması, rahat tətbiqi və kənd təsərrüfatında yüksək məhsuldarlığı ilə əlaqədardır. Bu məhsuldan digər kimyəvi maddələrin istehsalında və əczaçılıqda da geniş istifadə olunur.

İndiyədək azot gübrələri Azərbaycana idxal edildiyi halda, yeni zavod həm daxili bazarın tələbatını tam ödəyəcək, həm də istehsal etdiyi məhsulun təxminən 70 faizini ixrac edəcək. Nəticədə, daha əvvəl idxal üçün sərf edilən illik 90 milyon dollara qədər valyuta vəsaitləri ölkədə qalacaq, eyni zamanda, zavod respublikamız üçün əlavə gəlir mənbəyinə çevriləcək.



“SOCAR karbamid” zavodu hazırda ölkədə qeyri-neft sektorunda həyata keçirilmiş ən böyük layihədir və ümumi dəyəri təxminən 800 milyon avro təşkil edir. Layihənin maliyyələşdirilməsi ilkin dövrdə dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına həyata keçirilib. Zavodun inşası zamanı bir sıra beynəlxalq banklardan dövlət zəmanəti əsasında 500 milyon avro məbləğində vəsait cəlb edilib. Zavodda təxminən 500 nəfər daimi işlə təmin ediləcək. Bunun üçün SOCAR təhsil və təqaüd proqramları vasitəsilə ixtisaslı mütəxəssisləri əvvəlcədən hazırlayıb.

Prezident İlham Əliyev zavodu işə salıb.

Sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının əsas rezidentlərindən olan “SOCAR karbamid” zavodunun fəaliyyətindən bəhs edən filmə baxıb.

Daha sonra dövlətimizin başçısı müəssisənin kollektivi ilə görüşüb.

Azərbaycan Prezidenti görüşdə çıxış edib: **“Bu gün ölkəmizin tarixində çox əlamətdar hadisə baş verir. Biz Sumqayıt şəhərində karbamid zavodunun açılışını qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.**

**Bu zavodun yaradılması çox əlamətdar, çox önəmli hadisədir. Zavodun tikintisində iştirak etmiş bütün insanlara təşəkkürümü bildirmək istəyirəm. Mənə verilən məlumata görə, burada pik dövrdə üç mindən çox insan işləyib və onların mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Bu, onu göstərir ki, Azərbaycanda çox güclü kadr potensialı yaradılmışdır, həm fəhlə kadrları, həm mütəxəssislər. Bu, son illər ərzində təhsil sahəsinə ayrılan diqqətin bariz nümunəsidir.**

**Bu zavodun tikintisində xarici tərəfdaşlar iştirak etmişlər. Baş podratçı Koreyanın “Samsung” şirkətidir. Ən müasir avadanlıqlar Danimarka və Hollandiya şirkətləri tərəfindən təchiz edilib. Finlandiya şirkəti bu zavodun fəaliyyəti üçün lazım olan məsləhətləri verib. Yəni, biz burada çox müsbət beynəlxalq əməkdaşlıq nümunəsini görürük. Bu, bir daha onu göstərir ki, Azərbaycan xarici şirkətlər üçün çox cəlbedici ölkədir. Bu gözəl sənaye müəssisəsi birgə səylər nəticəsində yaradılıb.**

**Onu da bildirməliyəm ki, zavodun ərsəyə gəlməsində xarici bankların da rolu kifayət qədər böyükdür. Biz zavodu tikməyə başlayanda öz vəsaitimizi ilk mərhələdə qoymuşuq. Sonra xarici banklardan da kreditlər verildi. Bizə maliyyə cəhətdən dəstək olan bütün banklara da təşəkkürümü bildirmək istəyirəm.**

**Beləliklə, ölkəmizdə ən müasir standartlara cavab verən gözəl böyük sənaye müəssisəsi yaradılmışdır. Bu zavod Azərbaycanda qeyri-neft sənayesi sahəsində həyata keçirilən ən böyük layihədir. Mənə verilən məlumata görə, zavodda ildə 650 min ton karbamid istehsal olunacaq. Onun böyük əksəriyyəti ixrac ediləcək. Eyni zamanda, daxili tələbat da ödəniləcək. Çünki biz bu günə qədər gübrələri xaricdən alırıq və bu məqsədlər üçün böyük həcmdə valyuta xərclənir. Azərbaycan dövlətinin fermerlərə verilən gübrələrin 70 faizinin vəsaitini təmin etdiyini nəzərə alsaq, təsəvvür etmək çətin deyil ki, bu, büdcəmiz üçün kifayət qədər maliyyə yüküdür. Amma indi biz özümüz fermerlərimizi ən keyfiyyətli gübrə ilə təmin edəcəyik.**



**Zavodun özəlliyi həm də ondan ibarətdir ki, burada xammal kimi istifadə olunan məhsul təbii qazdır, yerli məhsuldur. Yəni, karbamidin tərkibində xarici komponent yoxdur. Burada ildə 450 milyon kubmetr təbii qazdan istifadə olunacaq. Əgər biz təbii qazı indi bugünkü qiymətlərlə mövcud xarici bazarlara satsaydıq, bundan təqribən 80 milyon dollar vəsait əldə edə bilərdik. Ancaq karbamid şəklində istehsal olunacaq məhsulun dəyəri 150-160 milyon dollar olacaqdır. Yəni, biz səmərəliliyi demək olar ki, iki dəfə artırmışıq. Ölkəmiz üçün çox gözəl ixrac məhsulu yaratmışıq. Kənd təsərrüfatının inkişafı üçün yerli gübrə yaratmışıq və ölkəmizin qeyri-neft sənayesinə böyük töhfə vermişik. Yəni, zavodun fəaliyyətə başlaması, bax, bu əsas məqsədləri güdür. Biz bütün məqsədlərə çata bilmişik.**

**Mən çox şadam ki, ölkəmizdə qeyri-neft sənayesi sürətlə artır. Keçən il 9,1 faiz artmışdır. Bu, onu göstərir ki, sənayeləşmə prosesi uğurla gedir. Keçən ilin yayında Sumqayıtda “SOCAR Polymer” müəssisəsinin birinci mərhələsi fəaliyyətə başladı. Bu il onun ikinci mərhələsi fəaliyyətə başlayacaq. Burada da ixracyönümlü çox gözəl məhsul istehsal olunacaq. Eyni zamanda, daxildə polipropilen, polietilendən istehsal olunacaq hazır məhsul da satışa buraxılacaq. Biz yenə də idxaldan asılılığı aradan qaldıracağıq. Bu zavodlarda yüzlərlə yeni iş yeri yaradılır. Mənə verilən məlumata görə, karbamid zavodunda 500 iş yeri yaradılacaq və burada işləyəcək insanların mütləq əksəriyyəti yerli vətəndaşlardır, onların əksəriyyəti gənclərdir. Yəni, orada çalışan insanların orta yaş səviyyəsi təqribən 30-35 arasındadır. Bax, görülən bu işlərin nəticələri budur. Ölkəmizin uğurlu inkişafı üçün belə böyük müəssisələrin çox böyük əhəmiyyəti var. Qeyri-neft sektorunun inkişafı bundan sonra da bizim üçün prioritet olacaq. Qeyd etdiyim kimi, qeyri-neft sənayesində 9,1 faiz artım çox böyük göstəricidir.**

**Əlbəttə, Azərbaycan bu layihələri xarici tərəfdaşlarla həyata keçirərkən bizim beynəlxalq əlaqələrimiz də möhkəmlənir. Bu gün Azərbaycan o ölkədir ki, bu ölkəyə həm xarici sərmayə qoyulur, həm banklar böyük məmnuniyyətlə vəsait ayırır. Çünki bilirlər ki, onların vəsaiti batmayacaq. Bilirlər ki, Azərbaycanın kifayət qədər böyük maliyyə resursları var. Bizim maliyyə resurslarımız, ehtiyatlarımız xarici borcumuzdan 4,5 dəfə çoxdur. Bax, bu gözəl vəziyyət imkan verir ki, biz tərəfdaşları, xarici bankları cəlb edək. Ancaq, eyni zamanda, bizim siyasətimiz ondan ibarətdir ki, xarici dövlət borcumuzu aşağı salaq. Necə ki, keçən il ərzində xarici dövlət borcu 22,8 faizdən 19 faizə düşübdür və bu il daha da düşəcək.**

**Mən çox şadam ki, bu gözəl müəssisə Sumqayıt şəhərində yaradılıb. Sumqayıt nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir. Sumqayıtın sənaye potensialının möhkəmləndirilməsi üçün çox böyük işlər görülüb. Mənim təşəbbüsümlə Sumqayıt Texnologiyalar Parkı, Sumqayıt Kimya Sənaye Parkı yaradılıb və 2017-ci ildə karbamid zavodu parkın rezidenti olubdur. Hazırda Sumqayıt Kimya Sənaye Parkında 18 rezident var. Onlardan 10-u fəaliyyət göstərir, artıq 11-ci rezident - karbamid zavodu da fəaliyyətə başlamışdır. Sumqayıt Kimya Sənaye Parkına qoyulan və qoyulacaq ümumi sərmayə təqribən 3 milyard dollara yaxındır. Bu, həm Sumqayıtın iqtisadi-sənaye potensialını gücləndirir, həm də iş yerlərinin yaradılmasına xidmət göstərir. Sumqayıtın ümumi inkişafı, o cümlədən ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün çox böyük işlər görülür. Sumqayıt bu gün parklar, bağlar, xiyabanlar şəhəridir, gözəl bulvar salınıb, binaların dam örtükləri təmir olunur. Ümumiyyətlə, indi Sumqayıtın müasir görkəmi çox müsbətdir. Bu zavod da ekoloji baxımdan çox təmiz bir zavoddur. Mənə verilən məlumata görə, havanı çirkləndirən heç bir maddə olmayacaq.**

**Beləliklə, bu zavodun yaradılması böyük hadisədir. Mən burada iştirak etmiş bütün vətəndaşları, bu işlərdə fəal rolu olan bütün insanları bir daha həm təbrik edirəm, həm onlara təşəkkürümü bildirirəm.**

**Onu da bildirməliyəm ki, bu zavodun açılışı Xoşbəxt Yusifzadənin ad gününə təsadüf edir. Mən istəyirəm, Xoşbəxt müəllimi bu gözəl hadisə münasibətilə bütün Azərbaycan vətəndaşları adından təbrik edim. Xoşbəxt müəllim neft sənayesinin canlı əfsanəsidir, neft sənayesinin rəmzidir, Azərbaycan vətəndaşının rəmzidir. Mən xüsusilə xahiş etdim ki, Xoşbəxt müəllim bu gün buraya dəvət olunsun, həm onu təbrik edim, eyni zamanda, bu gözəl hadisəni biz birlikdə qeyd edək.**

**Sizi bir daha təbrik edirəm, Sizə yeni uğurlar arzulayıram. Sağ olun”.**

* * *

Prezident İlham Əliyev zavodda istehsal olunacaq məhsullara da baxıb. Zavodda gün ərzində 2000 ton karbamid istehsal ediləcək.

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva yanvarın 16-da Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Nikola Sarkozinin prezidentlik fəaliyyəti dövründə Fransa-Azərbaycan əlaqələrinin uğurlu inkişafında xanım Mehriban Əliyevanın rolu vurğulanıb. Qeyd edilib ki, xanım Mehriban Əliyevanın Azərbaycan-Fransa parlamentlərarası dostluq qrupunun rəhbəri kimi fəaliyyəti və eləcə də Heydər Əliyev Fondu tərəfindən Fransada mühüm humanitar layihələrin həyata keçirilməsi əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə böyük töhfə verib.

Görüşdə, eyni zamanda, bildirilib ki, Nikola Sarkozinin prezidentliyi dövründə Azərbaycan və Fransa dövlət başçılarının ikitərəfli münasibətlərin inkişaf etdirilməsi istiqamətində göstərdikləri fəaliyyət nəticəsində ölkələrimiz arasında əlaqələr bir çox sahələrdə genişlənib.

# “Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi (XVII əsr-XVIII əsrin ilk dörddəbiri)” kitabının təqdimatı olub






Yanvarın 16-da Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Qafqazşünaslıq İnstitutunun təşkilatçılığı ilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin “Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi (XVII əsr-XVIII əsrin ilk dörddəbiri)” kitabının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli akademik Ramiz Mehdiyevin ictimai-siyasi fəaliyyətini qeyd etməklə yanaşı, Azərbaycan dövlətinin ideoloji əsaslarını təşkil edən bir sıra sanballı tədqiqat əsərlərinin müəllifi olduğunu bildirib. İ.Həbibbəyli “Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi (XVII əsr-XVIII əsrin ilk dörddəbiri)” kitabının da akademikin əvvəlki fundamental tədqiqatları kimi böyük elmi əhəmiyyətə malik olduğunu, eyni zamanda, tarix, beynəlxalq münasibətlər, konfliktologiya, qafqazşünaslıq istiqamətində yeni tədqiqatlar üçün imkanlar açdığını söyləyib. O, görkəmli dövlət xadimi, akademik Ramiz Mehdiyevin bu kitabını zəngin arxiv materialları, mühüm tarixi qaynaqlar, hərtərəfli müqayisələr, dərin təhlillər əsasında yazılmış, tarixşünaslığımıza və geniş ölçüdə azərbaycanşünaslığa töhfə olan əsər kimi dəyərləndirib. AMEA-nın vitse-prezidenti monoqrafiyanın milli tarixçiliyimizdə və cəmiyyətşünaslıqda büsbütün yeni baxışları əks etdirən orijinal bir araşdırma olaraq yeni tədqiqatlar silsiləsinin meydana çıxmasına etibarlı zəmin yaratdığını vurğulayıb. Bildirib ki, akademik Ramiz Mehdiyevin Səfəvilər, Nadir şah haqqında tədqiqatları Azərbaycan tarixşünaslıq elmində ən mühüm nailiyyətlərdən biridir. “Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi (XVII əsr-XVIII əsrin ilk dörddəbiri)” monoqrafiyası da bu tədqiqatların məntiqi davamı olaraq, həm dəyərli elmi mənbə, həm də gənc tədqiqatçılar üçün istiqamətverici proqramdır.

Sonra Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı məruzə ilə çıxış edib. O bildirib ki, kitab Qafqazda ermənilər tərəfindən yaradılmış münaqişələrin tarixi köklərini və gerçək mahiyyətini dərk etmək üçün ciddi faktlar verir. Maraqlı məsələlərdən biri ermənilərin tarixboyu müxtəlif dövlətlərə qarşı həyata keçirdikləri xəyanət siyasətinin elə onların öz mənbələrinin və müəlliflərinin əsərlərindən gətirilən faktlarla sübuta yetirilməsidir.

Qeyd edilib ki, kitab Qərb dövlətlərinin, habelə çar Rusiyasının əlində Səfəvilər dövlətinə qarşı casusluq, şantaj və separatizm vasitəsinə çevrilmiş Qriqorian kilsəsinin kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin dərk edilməsi və ətraflı işıqlandırılmasında mühüm vasitədir.

Akademik Ramiz Mehdiyevin bu günə qədər Səfəvilərin tarixinə dair önəmli tədqiqatlar apardığını, kitab, monoqrafiya və məqalələr çap etdirdiyini deyən M.Qasımlı yeni nəşrin digərlərindən fərqləndiyini, burada tarixi faktlarla ermənilərin Səfəvilərə qarşı casusluq etməsinin sübuta yetirildiyini söyləyib. **“Əsərdə Qriqorian kilsəsinin mahiyyəti açılır, eyni zamanda, erməni tacirlərinin casusluq fəaliyyəti göstərilir. Biri ideoloji əsas, o biri maddi əsas kimi verilir. Əsərdən çıxan nəticə budur ki, biz tarixçilər erməni psixologiyasını dərindən öyrənməliyik”**, - deyə M.Qasımlı bildirib.

AMEA-nın Tarix İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru Şahin Fazil Fərzəlibəyli müstəqillik illərində Azərbaycan tarix elminin inkişafında akademik Ramiz Mehdiyevin rolundan danışıb. O, akademik Ramiz Mehdiyevi aktual, tədqiqi zəruri olan kəskin problemləri öncədən görmək və yüksək elmi səviyyədə araşdırmaq qabiliyyəti ilə fərqlənən tarixçi kimi xarakterizə edib. Akademikin bu əsərinin Azərbaycan tarix elmində Qriqorian kilsəsinin XVII əsr-XVIII əsrin birinci rübündə Səfəvi dövlətinə qarşı kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin ilk dəfə ətraflı araşdırılması və işıqlandırılması faktı kimi olduqca əhəmiyyətli olduğunu diqqətə çatdırıb.

Qafqazşünaslıq İnstitutu direktorunun elmi işlər üzrə müavini, tarix üzrə fəlsəfə doktoru Ramilə Dadaşova, ermənişünaslıq şöbəsinin müdiri, tarix elmləri doktoru Qasım Hacıyev, Qafqaz siyasəti şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Elnur Kəlbizadə, Bakı Dövlət Universitetinin tarix fakültəsinin dekanı, tarix elmləri doktoru Azad Rzayev kitabın elmi məziyyətləri haqqında danışıblar. Qeyd olunub ki, nəşrindən keçən qısa müddət ərzində nəinki respublikamızda, eləcə də onun hüdudlarından kənarda elm adamlarının böyük marağına səbəb olmuş bu kitab Səfəvilər dövlətinə qarşı casusluq, şantaj və separatizm vasitəsinə çevrilmiş Qriqorian kilsəsinin kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin dərk edilməsi və ətraflı işıqlandırılması üçün ilk uğurlu addımdır. Əsər əzəli Azərbaycan torpaqlarının bir neçə əsr davam edən işğalında Eçmiədzinin roluna, ermənilərin ərazi iddialarının mənbələrinə tamamilə yeni baxışdır.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin “Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi” (XVII əsr-XVIII əsrin ilk dörddəbiri)” kitabı “Şərq-Qərb” nəşriyyatında çapdan çıxıb.

# Azərbaycan-İran hərbi əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun dəvəti ilə İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-leytenant Məhəmməd Baqeri Azərbaycanda rəsmi səfərdədir. Yanvarın 16-da Müdafiə Nazirliyində hər iki ölkənin nümayəndə heyətlərinin görüşü keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə qonaqlar Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan vətəndaşlarımızın xatirəsini yad edərək, məzarları üzərinə əklillər və gül dəstələri qoyublar.

Sonra Müdafiə Nazirliyində təkbətək və geniş tərkibdə görüşlər keçirilib.

Söhbət zamanı general-polkovnik Z.Həsənov İranın Silahlı Qüvvələrinə məxsus təyyarənin qəzaya uğraması nəticəsində baş vermiş faciə ilə əlaqədar bir daha başsağlığı verib.

General-leytenant M.Baqerinin Azərbaycana səfərini ölkələrimiz arasında dostluq əlaqələrinin yüksək göstəricisi kimi dəyərləndirən general-polkovnik Z.Həsənov ikitərəfli münasibətlərdə qarşılıqlı etimadın yaradılmasında və möhkəmləndirilməsində Ümummilli lider Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin xidmətlərini xüsusi vurğulayıb.



Regiondakı hərbi-siyasi vəziyyətdən danışan general-polkovnik Z.Həsənov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə ciddi təhdid olaraq qaldığını qonağın diqqətinə çatdırıb. Nazir, həmçinin münaqişənin ölkəmizin ərazi bütövlüyü, suverenliyi çərçivəsində həll olunması istiqamətində səylərinə görə İran tərəfinə minnətdarlığını bildirib.

Xalqlarımız arasında dini, tarixi, mədəni əlaqələrin mehriban dostluq ənənələrinə əsaslandığını, dövlətlərimizin bir çox istiqamətlərdə, o cümlədən hərbi sahədə də əməkdaşlığı üçün geniş potensialın olduğunu deyən general-leytenant M.Baqeri İranın ölkəmizin ərazi bütövlüyünü və münaqişənin həlli ilə bağlı ədalətli mövqeyini dəstəklədiyini, eyni zamanda, ölkəsi tərəfindən Azərbaycana hərtərəfli dəstəyin veriləcəyini xüsusi vurğulayıb.

Görüşdə Azərbaycan ilə İran arasında hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil üzrə əməkdaşlığın inkişaf perspektivləri, terrorizmlə mübarizə, regional təhlükəsizlik, ekspert qruplarının qarşılıqlı səfərlərinin təşkili və maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Yekunda tərəflər arasında görüşün protokolu imzalanıb.

# Fransanın sabiq Prezidenti Azərbaycan-Fransız Universitetində olub



Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ölkəmizə səfəri çərçivəsində yanvarın 16-da Azərbaycan-Fransız Universitetində (UFAZ) olub.

AZƏRTAC xəbər verir ki, Nikola Sarkozi əvvəlcə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetində nümayiş etdirilən sərgiyə baxıb. Sərgidə Azərbaycan tələbələrinin yay məktəbi zamanı Strasburqda çəkdikləri fotolar, eləcə də Azərbaycan Xalq Cümhuriyyətinə dair arxiv sənədləri nümayiş olunur.

Nikola Sarkozi universitetin tələbələri ilə söhbət edib, bu ali təhsil ocağında fəaliyyət göstərən laboratoriyalarla tanış olub.

Fransanın sabiq Prezidenti tələbələr qarşısındakı çıxışına "Sizin çox güclü və önəmli ölkəniz var" sözləri ilə başlayıb. N.Sarkozi vurğulayıb ki, Xəzər dənizinin sahilində yerləşməsi mükəmməl ölkə olan Azərbaycana daha böyük üstünlüklər gətirir. O qeyd edib ki, Azərbaycanın gələcəyi sayılan gənclər daim öz üzərlərində işləməlidirlər.

Sonda sabiq Prezident Nikola Sarkozi universitetin xatirə kitabına ürək sözlərini yazıb.

# Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər davam etdirilir





Təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilərək məhkəmə sistemi müasirləşdirilir, vətəndaşların ədalət mühakiməsinə əlçatanlığı asanlaşdırılır, müasir informasiya-kommunikasiya texnologiyalarının, o cümlədən "elektron məhkəmə" informasiya sisteminin tətbiqinin genişləndirilməsi ilə bağlı mühüm işlər görülür. Həmçinin hakim korpusu yeni nəsil hüquqşünaslarla möhkəmləndirilib, mövcud vakansiyaların tam əksəriyyəti komplektləşdirilməklə hakimlərin iş yükü xeyli azaldılıb, işlərə daha keyfiyyətlə və vaxtında baxılmasına şərait yaranıb.

Dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il dekabrın 28-də qəbul olunmuş qanunlarla Mülki Prosessual Məcəllədə, "Məhkəmələr və hakimlər haqqında" Qanunda edilmiş əsaslı dəyişikliklər məhkəmələrə müraciət imkanlarının genişləndirilməsini, məhkəmə icraatının elektron qaydada aparılmasını, vətəndaşların mənafelərinin təmin olunması, ədalət mühakiməsinin tezləşdirilməsi məqsədilə məhkəmə prosedurlarının elektronlaşdırılmasını şərtləndirib.

Yeni qanunvericiliyin icrasının təşkili ilə bağlı təxirə salınmadan tədbirlər müəyyən edilərək həyata keçirilməyə başlanılıb, o cümlədən qanunvericilikdəki yeniliklərin mahiyyətinin dərindən öyrənilməsi və "e-məhkəmə"nin imkanlarından səmərəli istifadə olunmaqla düzgün tətbiqi məqsədilə ali və apellyasiya məhkəmələrinin təlimçi-hakimlərinin iştirakı ilə paytaxtda və respublikanın bütün bölgələrində silsilə təlimlər və hüquqi maarifləndirmə tədbirləri keçirilir.

Eyni zamanda, dövlətimizin başçısının güclü siyasi iradəsi ilə ölkəmizdə korrupsiyaya qarşı çox ciddi mübarizə aparılır. Yanvarın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı bütün sahələrdə şəffaflığın və dürüstlüyün təmin olunması, əsassız tələblərə, sui-istifadə hallarına son qoyulması ilə bağlı qəti tapşırıqlar verib. Dövlətimizin başçısının siyasi iradəsinə uyğun olaraq, məhkəmələrin fəaliyyətində də şəffaflığın təmin edilməsi, vətəndaş-məmur münasibətlərinin sağlam meyarlar üzərində qurulması, insanların müraciətlərinə hər zaman həssaslıqla yanaşılması, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi daim diqqətdə saxlanılır. Bu məqsədlə paytaxtda və bölgələrdə bütün apellyasiya və birinci instansiya məhkəmələri sədrlərinin və hakimlərinin iştirakı ilə geniş müşavirələr keçirilərək ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə tədbirlər, məhkəmə fəaliyyətində mövcud problemlər, yol verilən nöqsanlar və onları doğuran səbəblər ətraflı təhlil olunub.

Növbəti belə müşavirə yanvarın 16-da Məhkəmə-Hüquq Şurasında Ali Məhkəmənin hakimlərinin iştirakı ilə keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədov və Ali Məhkəmənin sədri Ramiz Rzayev çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemində aparılan ardıcıl və məqsədyönlü islahatların bu sahədə işin müasir tələblər səviyyəsində qurulmasına, məhkəmələrə ictimai etimadın yüksəldilməsinə yönəldiyini bildiriblər.

Qeyd olunub ki, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, ədalət mühakiməsinin səmərəliliyinə nail olunmasında, vahid məhkəmə təcrübəsinin formalaşmasında Ali Məhkəmə mühüm rol oynayır. Ona görə bu məhkəmədə məhz hazırlıqlı, ən peşəkar, yüksək mənəvi keyfiyyətlərə malik hakimlər işləməlidirlər ki, qanunun aliliyi, məhkəmə qərarlarının ədalətliliyi təmin olunsun. Bu məsələdə hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilməsi institutunun tətbiqinin mühüm əhəmiyyəti vurğulanıb.

Müşavirədə insanlarda haqlı narazılıq doğuran nöqsan və çatışmazlıqların aradan qaldırılması, Hakimlərin Etik Davranış Kodeksinin tələblərinə dönmədən əməl edilməsi, qeyri-prosessual münasibətlərin qarşısının alınması, mənfi halların yolverilməzliyi qeyd olunub.

Həmçinin mövcud problemlərin həlli yolları təhlil edilib, vətəndaşların hüquq və azadlıqlarının təmin olunması, süründürməçiliyə və korrupsiyaya şərait yaradan hallara yol verilməməsi, ədalət mühakiməsinə ictimai etimadın artırılması və sair məsələlərlə bağlı tövsiyələr verilib.

# "Bakı-2019"a hazırlıqla bağlı Koordinasiya Komissiyasının texniki görüşü keçirilib



İyulun 20-28-də Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalına hazırlıqla bağlı görülmüş işlərə nəzər salmaq və gələcək addımları müzakirə etmək məqsədilə Koordinasiya Komissiyasının texniki görüşü keçirilib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə gənclər və idman naziri, "Bakı-2019" Təşkilat Komitəsinin sədr müavini Azad Rəhimov, Avropa Olimpiya Komitəsi Koordinasiya Komissiyasının sədri Corce Vişaçki və digər nümayəndələr iştirak ediblər.

İki gündür Bakıda səfərdə olan qonaqlar Azərbaycan hökumətinin Avropa Gənclər Olimpiya Festivalına hazırlıq istiqamətində gördüyü işlərin yüksək səviyyədə olduğunu bildirib, gələcək addımlarla bağlı fikir mübadiləsi aparıblar. Bakıda olduqları müddətdə qonaqlar Azərbaycan Milli İdman Tibb və Reabilitasiya İnstitutunda, Azərbaycan Milli Antidopinq Agentliyində və yarışların keçiriləcəyi bir sıra idman arenalarında olublar.

Görüşdə akkreditasiya prosesi, yarış cədvəlinə uyğun olaraq idmançıların arenalara vaxtında aparılıb-gətirilməsi, nəqliyyat, təhlükəsizlik, dopinq yoxlamaları, yarışa dair digər mühüm mövzular müzakirə edilib.

Avropa Gənclər Olimpiya Festivalının açılış mərasimi iyulun 21-də keçiriləcək. Bu günədək 49 ölkə yarışda iştirakını təsdiqləyib. Ümumilikdə Avropanın 50 ölkəsindən 3600-dən çox idmançı və texniki nümayəndə heyəti yarışa qatılmaq üçün ölkəmizə təşrif buyuracaq. On iki arenada idmanın on növü üzrə (bədii gimnastika, atletika, basketbol, velosiped, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol, güləş) keçiriləcək yarışlara ümumilikdə 2500-dən çox könüllü cəlb olunacaq.

# İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Milli Məclisdə olub



Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov yanvarın 16-da İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov Məhəmməd Baqerinin İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi kimi ölkəmizə ilk səfərinin Azərbaycan-İran əlaqələrinin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. O bildirib ki, Azərbaycan ilə İran dost, yaxın qonşu, qardaş ölkələrdir, bizim ortaq tariximiz, mədəniyyətimiz, dinimiz münasibətlərimizin daha da dərinləşməsinə zəmin yaradır.

Milli Məclisin sədri qeyd edib ki, dövlət başçılarının qarşılıqlı rəsmi səfərləri, görüşləri ölkələrimiz arasındakı əlaqələrin yüksək səviyyəyə çatmasına xüsusi təkan verib. O, eyni zamanda, hökumət üzvlərinin, hüquq-mühafizə orqanlarının nümayəndələrinin səfərlərinin vacibliyini də vurğulayıb. Əlavə edib ki, bütün bunlar ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsinin göstəricisidir.

Oqtay Əsədov 2018-ci ildə İran və Azərbaycan arasında ticarət dövriyyəsinin həcminin 400 milyon dolları ötdüyünü deyib. Bildirib ki, bu, ölkələrimizin potensialını əks etdirmir, biz bu rəqəmi daha da artırmalıyıq. Bu istiqamətdə işlərin getdiyini söyləyən sədr qeyd edib ki, son 5 il ərzində İran ilə Azərbaycan arasında 24 biznes forum keçirilib.

Parlamentlərarası əlaqələrin razılıq doğurduğunu deyən Milli Məclisin sədri dostluq qruplarının fəaliyyətini yüksək qiymətləndirib.

İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqeri bildirib ki, ölkələrimizin müştərək tarixə, dinə, coğrafiyaya malik olması İran-Azərbaycan əlaqələrinin genişlənməsinə təkan verir. O, dövlətlərimiz arasında münasibətlərin inkişaf etdiyini, ölkə rəsmilərinin qarşılıqlı səfərlərinin intensiv xarakter daşıdığını söyləyib. Məhəmməd Baqeri başqa istiqamətlərdə olduğu kimi, müdafiə sahəsində də əlaqələrimizin dərinləşməsinin önəmini vurğulayıb.

# BDU-da İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri imtahan prosesini izləyiblər





Bakı Dövlət Universiteti rektorluğu yanında İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri, Milli Məclisin deputatları, təhsil ekspertləri, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri nümayəndələri, valideynlər və ictimaiyyət nümayəndələrinin iştirakı ilə 2018-2019-ci tədris ilinin payız semestrinin imtahan sessiyasında imtahanlara baxış keçirilib.

AZƏRTAC xəbər verir ki, ictimai nəzarətin əsas məqsədi imtahan sessiyasının şəffaf keçirilməsi, tələbələrin biliyinin qiymətləndirilməsində obyektivliyin təmin olunması ilə bağlı ictimaiyyəti məlumatlandırmaqdır.

İmtahanlara nəzarət edən müəllim-koordinatorların bölgüsü ilə tanış olan İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri, media nümayəndələri və digər iştirakçılar Tədris Departamenti nəzdindəki monitorinq otağında olub, auditoriyalarda keçirilən imtahan prosesini izləyib, yazı işlərinin kodlaşdırılması ilə tanış olub, imtahanların təşkilinə və aparılmasına baxış keçiriblər.

Məlum olub ki, 23 mindən artıq bakalavr və magistrantın iştirak etdiyi imtahan sessiyasının gedişinə nəzarət etmək, tələbə və valideynlərin, həmçinin ictimaiyyətin müraciətlərinin qəbulu və araşdırılması məqsədilə Qərargah və onun nəzdində təbiət və humanitar fakültələr üzrə apellyasiya komissiyaları yaradılıb. Qiymətləndirmədən narazı qalan tələbələrin Qərargaha müraciəti üçün şərait təmin edilib.

İmtahanlara baxış keçiriləndən sonra İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri və media nümayəndələrinin Bakı Dövlət Universitetinin rektoru vəzifəsini icra edən, Azərbaycan Respublikası təhsil nazirinin müavini Firudin Qurbanovla görüşü zamanı imtahanların təşkili və keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Eyni zamanda, F.Qurbanov universitetdə görülən işlər, yeniliklər barədə məlumat verib və Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncamın icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin təsdiq etdiyi Tədbirlər Planına və Təhsil Nazirliyinin müvafiq əmrinə uyğun olaraq yubileyə hazırlıq, tədbirlərin UNESCO, ISESCO-da qeyd edilməsi, elmi-praktik konfransların, universitetin tarixini əks etdirən müxtəlif nəşrlərin hazırlanması məsələlərindən danışıb.

İctimai şuranın üzvləri və imtahan prosesinə baxış keçirən digər iştirakçılar görülən işləri yüksək qiymətləndirib, imtahanların şəffaf və obyektiv keçirilməsini, imtahan prosesində baş verə biləcək bütün neqativ halların qarşısının alınması üçün lazımi tədbirlərin görülməsini təqdir edib, tələbələrə öz biliklərini ifadə etmək üçün yaradılan şəraitdən məmnunluq ifadə ediblər.

Qeyd edək ki, Bakı Dövlət Universiteti rektorluğu yanında İctimai Nəzarət və Məsləhət Şurasının yeni tərkibinə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruz Aslan, deputat Sevinc Fətəliyeva, Azərbaycan Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev, Qafqaz Müsəlmanları İdarəsi Elmi Dini Şuranın sədri, akademik Vasim Məmmədəliyev, BP şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli, Milli QHT Forumunun prezidenti Rauf Zeyni, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti, Korrupsiyaya Qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsinin koordinatoru Əliməmməd Nuriyev, "XXI əsr" təhsil mərkəzinin rəhbəri Etibar Əliyev, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı və Modern.az saytının baş redaktoru Elşad Eyvazlı daxildir.

# İdarəetmədə sistemli islahatlar: struktur yeniliklərində növbəti mərhələ




***Azərbaycanda demokratik dövlət quruculuğu kursunun əsasını Ulu öndər Heydər Əliyev qoyub. Bu prosesi Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlət başçısı həm ölkənin daxili tarixi təkamül dinamikasını, həm də dünya təcrübəsini nəzərə alaraq davamlı islahatlar həyata keçirir. Həmin bağlılıqda Prezident İlham Əliyevin yanvarın 14-də imzaladığı Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərmanı ciddi əhəmiyyət daşıyır. Ekspertlər həmin Fərmandan irəli gələn vəzifələri həm dövlət quruculuğu kursunun inkişaf etdirilməsi çərçivəsində, həm bütövlükdə idarəetmədə aparılan islahatların Azərbaycanın beynəlxalq aləmdə imicinin formalaşmasında oynadığı rol kontekstində analiz edirlər. Məsələnin bu aspekti üzərində geniş dayanmağa ehtiyac duyuruq.***

## DAHA TƏKMİL İDARƏETMƏ: DAXİLİ POTENSİALIN MAKSİMUM SƏFƏRBƏRLİYİ

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında milli dövlətçiliyin inkişafı baxımından çox aktual olan məsələlərdən bəhs edib. Dövlət başçısı sürətlə dəyişən müasir dünyada daha uğurlu və səmərəli fəaliyyətin ümumi prinsiplərini bir daha bəyan edib. Konkret sahələr üzrə qarşıda duran vəzifələrin həlli üçün çevik, məqsədyönlü və səmərəli fəaliyyətlə bağlı reallaşdırılmalı olan islahatları vurğulayıb.

Təbii ki, Prezident İlham Əliyev əldə olunan böyük nailiyyətləri vurğulayıb. Onların Azərbaycan dövlətçiliyinin inkişafı, vətəndaşların rifahı, iqtisadi tərəqqinin sürətləndirilməsi istiqamətində oynadığı rolu xüsusi qeyd edib. Bunlarla yanaşı, Azərbaycan qarşısına daim irəliləyiş məqsədini qoyan dövlətdir. Azərbaycan üçün təkmilləşmənin sonu yoxdur. Bu səbəbdən də ölkə rəhbəri idarəetmə sahəsində yeni islahatların həyata keçirilməsi zərurətini də ifadə edib.

Dövlət başçısı Nazirlər Kabinetinin bəhs olunan iclasında söylədiyi yekun nitqində vurğulayıb: **“İndi struktur islahatı gözlənilir. Çünki indi idarəetmədə struktur köhnəlib. Yeni idarəetmə strukturu olmalıdır - daha çevik, daha yığcam, daha məqsədyönlü. Çünki illər boyu yeni qurumlar yaranır. Onlar yarananda o qədər də hiss olunmur. Biri orada, biri burada yarandı, bir agentlik, bir xidmət yarandı. Sonra da baxanda görürük ki, bizim idarəetmə strukturumuz böyük dərəcədə şişirdilib”** (bax: Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib / AZƏRTAC, 11 yanvar 2019).

Bu fikirlərdə demokratik idarəetmənin başlıca prinsipləri lakonik şəkildə ifadə olunub. Öncə, dövlət başçısı onu vurğulayır ki, hər bir yeni qurum yaratmaq özlüyündə demokratik idarəetməni təkmilləşdirməyə xidmət etməyə də bilər. Burada başlıca meyar kimi praktika götürülməlidir. Təcrübə göstərdi ki, bir sıra yeni yaradılan və müxtəlif sferalara aid olan təşkilatlar gözlənilən səmərəni vermir.

Bu səbəbdən həmin növ təşkilatların ləğv edilməsindən dövlət çəkinməməlidir. Çünki əsas olanı milli dövlətçiliyi və idarəetməni təkmilləşdirmək, dövrün tələblərinə uyğun daha çevik və səmərəli hala gətirməkdən ibarətdir. Prezident İlham Əliyev konkret və açıq surətdə vurğulayır ki, **“...görürük ki, bizim idarəetmə strukturumuz böyük dərəcədə şişirdilib”** (bax: əvvəlki mənbəyə).

Bu cür yanaşma demokratik idarəetmənin əsas qayəsini təşkil edir. Dövlət başçısı idarəetmədə şəffaflığı, yığcamlığı və demokratikliyi başlıca meyar kimi seçərək, ona dəqiqliklə əməl edir. Eyni qayda ilə Prezidentin idarəetmədə çalışan bütün kadrlardan məsuliyyətli, dəqiq və fəal olmağı tələb etməyə tam haqqı vardır.

Həmin bağlılıqda dövlət başçısının ifadə etdiyi aşağıdakı fikirlər çox önəmlidir. Prezident İlham Əliyev fikirlərinə davam edərək vurğulayıb: **“İndi dünyada əks proses gedir - idarəetmə daha yığcam, çevik, daha da məqsədyönlü və az işçi ilə böyük iş görmək üçün. Amma bizdə idarəetmə sistemi şişir. Buna son qoyulmalıdır. Ona görə struktur islahatı, kadr islahatı aparılmalıdır. Hər bir sahədə o sahəyə rəhbərlik edən şəxslər mütləq maksimum səmərə ilə işləməlidirlər”** (bax: əvvəlki mənbəyə).

Ölkə rəhbəri konkret ifadə edir ki, Azərbaycanda idarəetmə dünyanın inkişaf etmiş hissəsində müşahidə edilən idarəetmə özəlliklərini mütləq nəzərə almalıdır. Azərbaycan demokratik və sivil idarəetməni əsas xətt kimi seçib və bu kontekstdə digər aparıcı dövlətlərlə təcrübə mübadiləsinə tam açıqdır. Bir sıra ölkələr Azərbaycanda yeni yaradılan və demokratiya baxımından səmərəli olan idarəetmə strukturlarını mənimsəyirlər. Məsələn, “ASAN” xidmət Azərbaycanın brendi hesab olunur.

## BEYNƏLXALQ TƏCRÜBƏ VƏ AZƏRBAYCAN: QARŞILIQLI ƏLAQƏLƏRDƏN OPTİMAL TARAZLIĞA

Bununla yanaşı, Azərbaycan da bütövlükdə dünya dövlətlərində idarəetmə sahəsində özünü göstərən özəl prosesləri diqqətlə izləyir və müasir dövrün tələblərinə uyğun strukturlar yaratmaqdan çəkinmir. Bu aspektdə Azərbaycanda müstəqil dövlətçiliyi daha sürətlə inkişaf etdirmək üçün zamanında vitse-prezidentlik institutunun yaradılması ayrıca vurğulana bilər.

Dövlət başçısının yuxarıda vurğulanan fikirləri bir daha göstərir ki, Bakı idarəetmədə islahatlar prosesini daim inkişaf etdirməkdə qərarlıdır. Artıq Prezident Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb (bax: Prezident Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb / AZƏRTAC, 14 yanvar 2019). Ekspertlərin fikrinə görə, Fərmanın imzalanmasında məqsəd Azərbaycanda dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi, dövlət orqanlarının və qurumlarının fəaliyyətinin optimallaşdırılması və dövlət büdcəsi vəsaitindən səmərəli istifadənin təmin edilməsidir.

Yəni Azərbaycanın dövlət başçısı çevik surətdə struktur islahatlarını inkişaf etdirir. Fəaliyyəti dayandırılan strukturlar doğrudan da öz üzərlərinə düşən vəzifəni müasir tələblər səviyyəsində yerinə yetirə bilmirdilər. Bir qismi də dövlət büdcəsindən maliyyə alır, ancaq onu səmərəli istifadə edə bilmirdi. Başqa məqamlar da mövcud idi. Bütün bunları nəzərə alaraq, Prezident İlham Əliyev öz qəti qərarını verib. Nəticədə, ekspertlərin də vurğuladığı kimi, Azərbaycan dövlət olaraq bir sıra istiqamətlərdə daha səmərəli fəaliyyət göstərmək şansı əldə etdi. Mütəxəssislər vurğulayırlar ki, əslində, indi aparılan struktur islahatları 2015-ci ildən bəri həyata keçirilən dərin hüquqi və institusional islahatların davamıdır.

Azərbaycan dinamik və hərtərəfli inkişaf edən ölkə kimi daha çevik struktura malik optimal idarəetmə tələb edir. Burada strateji uğurların davamlılığını təmin etmək üçün daha səmərəli şərtlər formalaşdırmaq ciddi əhəmiyyət kəsb edir. Təbii ki, bu zaman paralel strukturlar, səmərəliliyi lazımi səviyyədə olmayan qurumlar və kifayət qədər çevik fəaliyyət mexanizminə malik olmayan təşkilatlar idarəetmə vahidi kimi əvəzlənməlidir. Həmin işlərin reallaşması üçün isə sistemli islahatlar aparılmalıdır. Prezidentin imzaladığı Fərman bu kontekstdə olduqca əhəmiyyətli sənəd olmaqla Azərbaycanda milli dövlət quruculuğu kursunun bütün prinsiplərinə tam uyğundur.

Bu prosesin ölkənin beynəlxalq aləmdə də öz mövqeyini möhkəmləndirməsində əhəmiyyətli rol oynayacağı şübhə doğurmur. Azərbaycan dünya reytinq cədvəllərindən rəqabət qabiliyyəti dinamik yüksələn dövlət kimi qəbul edilir. Həmin aspektdə də prosesin davam etməsi üçün dövlət başçısının Fərmanda göstərdiyi məqamlara ciddi diqqət yetirilməsi gərəkdir. Orada ləğv edilən strukturlarla yanaşı, bir sıra qurumların daha səmərəli fəaliyyət göstərməsi zərurəti də qeyd olunub.

Başqa tərəfdən, Prezidentin bu Fərmanı bütövlükdə idarəetmə sisteminə daxil olan idarəetmə vahidləri üçün bir çağırış və ya nümunədir. Yəni idarəetməyə məsul olan hər bir institusional vahid dövlətçiliyin bundan sonrakı inkişafı üçün daha səmərəli, çevik və demokratik prinsiplərə tam uyğun olaraq çalışmalıdır.

Şübhə yoxdur ki, həyata keçirilən islahatlar kursu dayanmadan davam etdiriləcək. Prezident İlham Əliyev verdiyi vədlərin hər birinə əməl edib və edir. Açıq görünür ki, Azərbaycanda müstəqil dövlətçilik daim inkişafdadır. İslahatlar, yeniləşmələr öz müsbət bəhrəsini verir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyası müasir şəraitin tələblərinə uyğun daha da inkişaf etdirilir. Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət bunun əyani təsdiqidir. Bu baxımdan imzalanan Fərman da dövlətin idarə edilməsi prosesində yeni bir müsbət hadisədir.

**Newtimes.az**

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində ötən ilin yekunları müzakirə edilib







Yanvarın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) 2018-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, iclasda kollegiya üzvləri ilə yanaşı, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, həmçinin Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasına toxunub. 2018-ci ilin, ümumilikdə, ölkəmiz üçün uğurlu olduğunu, bir çox sahələrdə nailiyyətlərin əldə edildiyini bildirən DQİDK sədri ötən il ərzində ölkədə dini durumla bağlı sabitliyi təmin etmək və qoruyub-saxlamaq, həmçinin tolerant mühitin daha da sağlamlaşdırılması, mənfi təzahürlərin aradan qaldırılması üçün bir sıra əhəmiyyətli addımların atıldığını diqqətə çatdırıb.

Mübariz Qurbanlı bildirib ki, bu ilin dövlətimizin başçısı tərəfindən Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq “Nəsimi İli” elan olunması Azərbaycanın zəngin tarixi-mədəni irsinin təbliğinə çox böyük töhfədir.

Dövlət Komitəsinin sədri daha sonra 2018-ci il ərzində respublikada dini durumu dərindən öyrənmək, dini prosesləri izləmək, əsas tendensiyaları müəyyənləşdirmək, radikal dini cərəyanların fəaliyyətinin qarşısını almaq, ölkədəki dini vəziyyətlə bağlı informasiya fondunu genişləndirmək, dini qurumlarla əməkdaşlığın qurulmasını təmin etmək məqsədilə həyata keçirilən müvafiq tədbirlər barədə ətraflı məlumat verib.

Dövlət Komitəsinin sədri 2018-ci ildə dövlət qeydiyyatına alınan dini icmaların ümumi sayının 909-a çatdığını, onlardan 877-nin İslam, 21-i xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru olmaqla 32-nin isə qeyri-islam təmayüllü olduğunu vurğulayıb. Hesabat dövründə dini qurumların dövlət qeydiyyatına alınması ilə bağlı 143 müraciətin (138-i İslam, 5-i qeyri-islam təmayüllü) daxil olduğu, 22 dini qurumun sənədlərinin qanunvericiliyə uyğun tərtib edilmədiyinə görə geri qaytarıldığı, ümumilikdə, 98 dini icmanın (96-sı İslam, 2-si qeyri-islam təmayüllü) dövlət qeydiyyatına alındığı diqqətə çatdırılıb.

O, hesabat dövrü ərzində keçirilən bəzi maarifləndirici tədbirlərin formatına uyğun olaraq, Dövlət Komitəsinin sifarişi ilə hazırlanmış “Fitnə”, “Şəhadət”, “Üfüqdəki gələcək” və “Vəhdət qanımızdadır” adlı sənədli filmlərin ölkənin bütün regionlarında, o cümlədən ölkəmizdəki ali təhsil müəssisələrində, orta məktəblərdə, gənclər evlərində və s. müvafiq məkanlarda nümayiş etdirildiyini vurğulayıb.

Daha sonra Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadənin məruzəsi dinlənilib.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev çıxışında bildirib ki, hesabat dövründə təmsil etdiyi Agentlik və onun tabeliyindəki Mənəvi Dəyərlər Fondu dövlət-din münasibətlərinin tənzimlənməsi və bundan irəli gələn vəzifələrin təkmilləşdirilməsi, radikal dini cərəyanlara qarşı müvafiq tədbirlərin görülməsi, cəmiyyətdə milli-mənəvi dəyərlərin təbliği istiqamətində fəaliyyətini davam etdirib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov isə İnstitutun 2018-ci ildə təhsil standartlarının müəyyənləşdirilməsi, strukturunun təşkili, tələbə qəbulu, ilk tədris ilinə hazırlıq, eləcə də maarifləndirmə istiqamətində apardığı ardıcıl və məqsədyönlü işlər barədə məlumat verib.

Daha sonra Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov Fond tərəfindən mənəvi dəyərlərin qorunması, inkişafı və təbliğini həyata keçirmək məqsədilə reallaşdırılan tədbirlər barədə danışıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxış edərək bildirib ki, Azərbaycanda din sahəsində stabil mühit mövcuddur, ölkəmiz konfessiyalar və məzhəblərarası münasibətlərin tənzimlənməsi baxımından nümunəvidir. O qeyd edib ki, dövlətimizin başçısı İlham Əliyev tərəfindən dini icmalara göstərilən qayğı, onların fəaliyyəti üçün daim geniş imkanların yaradılması dövlətin milli-mənəvi dəyərlərə olan yüksək münasibətinin bariz nümunəsidir.

E.Nəcəfov ölkədə dini durumla bağlı sabitliyin qorunub-saxlanılması və dini icmalar arasında mövcud tolerantlıq mühitinə kölgə salmağa çalışan mənfi təzahürlərin aradan qaldırılması istiqamətində Dövlət Komitəsi tərəfindən görülən işləri, xüsusilə respublikanı əhatə edən genişmiqyaslı maarifləndirmə tədbirlərini yüksək qiymətləndirib və bu tədbirlərin ölkədəki dövlət-din münasibətlərinin daha da təkmilləşməsinə öz töhfəsini verdiyini bildirib. O, ötən ildən başlayaraq təmsil etdiyi şöbənin respublikanın bütün bölgələrində etno-siyasi və dini durumla bağlı keçirdiyi zona müşavirələrinin dini radikalizmə qarşı mübarizə işinə öz müsbət təsirini göstərdiyini bildirib.

Sonda Dövlət Komitəsinin 2019-cu il üçün fəaliyyət planı, qarşıya qoyulan məqsədlər, görüləcək işlər, problem və perspektivlər geniş müzakirə edilib.

# Qafqaz Müsəlmanları İdarəsi 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar bəyanat yayıb




Qafqaz Müsəlmanları İdarəsi (QMİ) 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar bəyanat yayıb. Bu barədə AZƏRTAC-a QMİ-nin mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda deyilir: "Azərbaycan xalqına qarşı dəhşətli cinayət - tarixi yaddaşımıza dərin hüzn, eyni zamanda, milli qürur və qəhrəmanlıq məktəbi kimi həkk olunmuş Qanlı Yanvar faciəsinin 29-cu ildönümü ərəfəsindəyik. Şəhidlərimizin əziz xatirəsi qarşısında illərdən bəri ürəklərimizdə gəzdirdiyimiz vətəndaşlıq qüruru və qan yaddaşımızı əsrlər belə silmək iqtidarında deyil. Azərbaycan dövlətçiliyinin bərpası uğrunda qurban getmiş, Allah-Təala nəzərində ən yüksək məqamlardan sayılan şəhidlik zirvəsinə ucalmışlara xalqımızın ehtiramı tükənməz, əbədidir.

Qan yaddaşımızda əbədi yaşayacaq 20 Yanvar günü bütün faciəsi ilə yanaşı, xalqımızın milli müstəqillik, azadlıq uğrunda şəhidliyə hazırlıq ruhunun və yenilməz iradəsinin rəmzinə çevrilib. 20 Yanvar bizi müstəqilliyə, milli-mənəvi və dini dəyərlərin bərpasına aparan yolun ilk mübarizəsi və ilk mənəvi qələbəsi oldu. Təpədən dırnağadək silahlanmış sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız diz çökmədi, azadlıq əzmini itirmədi, əksinə, haqq səsini daha da yüksəkdən bəyan etdi. Azərbaycanın taleyi, hətta dövləti varlığı şübhə altında olduğu bir vaxtda bu səsi ilk olaraq Moskvadan xalqımızın mərd oğlu, müdrik dövlət xadimi Heydər Əliyev ucaltdı, ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirərək SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirdi. O, qanlı cinayətin təşkilatçılarını qəzəblə ittiham etdi, törədilmiş hadisəni hüquqa, demokratiyaya, humanizmə zidd təxribat kimi səciyyələndirdi. Bakıda isə dini lider - şeyxülislam keçmiş SSRİ prezidenti Mixail Qorbaçova göndərdiyi qəzəb, ittiham dolu açıq məktubunda hadisələrə sərt və prinsipial münasibətini bildirdi. Siyasi liderimizin və dini rəhbərimizin kəskin mövqeləri xalqı ruhlandırdı, səfərbər edərək birləşdirdi. Bir milyondan çox insan təqiblərdən, hətta ölümdən belə qorxmayaraq şəhərin baş meydanına axışdı, azadlıq uğrunda qurban getmiş şəhidləri müqəddəs Vətən torpağına tapşırdı. Beləliklə, qanlı 20 Yanvar faciəsi müstəqil Azərbaycan dövlətinin tarixinə xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi həkk olundu.

O zamankı ölkə rəhbərlərinin ictimai-siyasi vəziyyəti düzgün dəyərləndirə bilməməsi, səriştəsizliyi səbəbindən lazımi qiymətini almamış 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət Ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan parlamentində verildi. Qafqaz Müsəlmanları İdarəsi, öz növbəsində, qanlı hadisələrin ilk günündən var qüvvəsi ilə çalışdı ki, Qarabağ münaqişəsinin davamı olan 20 Yanvar faciəsini dünya ictimaiyyətinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırsın, haqq işimizə dəstək qazansın, törədilən cinayət insaniyyətə qarşı yönəldilən amansız cinayət tədbiri kimi qiymətləndirilsin. Bu məqsədlə Qafqaz Müsəlmanları İdarəsi dünya parlamentlərinə, dini liderlərə və dövlət başçılarına xüsusi müraciət ünvanladı və bu müraciət beynəlxalq aləmdə böyük rezonans doğurdu.

Azərbaycan xalqının tam mənəvi haqqı var ki, qatilləri - Bakıda baş verən qırğın fərmanına şəxsən qol çəkmiş M.Qorbaçovu və onun əlaltılarını məhkəməyə cəlb etsin, beynəlxalq qanunlar zəminində canilərin qəddarlığı, riyakarlığı, vəhşiliyi, əsl niyyətləri dünya ictimaiyyətinə tam şəkildə açılsın. İnsanlığa qarşı ağır cinayətlər sırasında Azərbaycan xalqına qarşı kütləvi terror - 20 Yanvar cinayətinin törədilməsində sovet ordusunun tərkibində Bakıya yeridilmiş erməni cəlladlarının amansızlığı xüsusən qeyd olunmalıdır. Təəssüflər olsun ki, dünyada problemlərə qərəzli, ikili standartlar çərçivəsində yanaşıldığından, bəzi ölkələr və beynəlxalq təşkilatlar susmağa üstünlük verdiklərindən Xocalı soyqırımı kimi qətliamlar baş verir.

Bu gün hər bir azərbaycanlının boynunda şəhid haqqı var. Azərbaycanın müstəqilliyi, milli dövlətçiliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuşlar sırasında müxtəlif din və millətlərə mənsub vətəndaşlarımız var. Şəhidlərin ruhuna ən böyük töhfə müstəqilliyimizin davamlılığı, Qarabağ zəfəri, dövlətçiliyimizin artan qüdrəti, Vətənimizin tərəqqisi və xalqımızın səadətidir. Biz, din xadimləri, münaqişənin dinc danışıqlar, ədalətli sülh yolu ilə həlli üçün dualar edirik. Bununla yanaşı, Qarabağda Cocuq Mərcanlı, Lələtəpə, Naxçıvanda Günnüt qələbələrimiz bizi əmin edir ki, Allahın köməyi və möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə millətimiz öz ülvi arzularına yetişmək qüdrətindədir. Doğma torpaqlarımız işğaldan azad olunduqdan sonra Azərbaycanın hər yerində qələbə şəninə bayram namazları qılınacaqdır, inşallah.

Qafqaz Müsəlmanları İdarəsi 20 Yanvar şəhidlərinin, eləcə də Vətənimizin bütövlüyü və milli müstəqilliyimiz uğrunda canlarını fəda etmiş bütün şəhid ailələrinə dərin hüznlə başsağlığı verir. Şəhidlik imanın, vətənpərvərliyin, əqidə və amal uğrunda mübarizənin ən yüksək zirvəsidir, çünki şəhidlər Allahın onlara göndərdiyi imtahandan mərdliklə, fədakarlıqla çıxırlar.

Dini mərkəz olaraq 20 Yanvar günü bütün məscidlərdə və dini mərasimlərdə bu bəyanatın mətninin oxunmasını, Qarabağ, 20 Yanvar həqiqətləri barədə moizələr edilməsini, əziz şəhidlərimizin xatirəsini Quran ayələri, dualarla yad etməyi vacib sayırıq. Uca Allahın "Qurani-Kərim"də ölməz, cənnətməkan buyurduğu şəhidlərimizin ruhları şad olsun! Allah-Təala şəhidlərimizə rəhmət eləsin!".

# YAP Ağstafa rayon təşkilatında 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə bağlı tədbir keçirilib




Dünən Yeni Azərbaycan Partiyası (YAP) Ağstafa rayon təşkilatında 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə YAP Ağstafa rayon təşkilatının sədr müavini Lalə Eyyubova açaraq faciə haqqında fikirlərini bildirib.

Tədbirdə YAP Ağstafa rayon təşkilatının Gənclər Birliyinin sədri Elvin İmaməliyev, Ağstafa rayon Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli, YAP Ağstafa rayon təşkilatı Qadınlar Şurasının sədri Şəhanə Osmanova, Zəlimxan kənd orta məktəbinin direktoru Qalib Cəfərov, "Ağstafa" qəzetinin baş redaktoru İbrahim Əliyev, rayon Gənclər və İdman idarəsinin rəisi Feruz Həsənov və başqaları çıxış edərək 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə baş verən qanlı hadisələrdən söz açıblar.

Bildirilib ki, Sovet imperiyası rəhbərliyinin 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya yeritdiyi ordu amansız cinayətlər və kütləvi qırğınlar törətdi. O qanlı gecədə milliyyətindən, yaşından və cinsindən asılı olmayaraq, 140 nəfərə yaxın mülki şəxs qətlə yetirildi, 700-dən çox günahsız insan yaralandı, yüzlərlə şəxs itkin düşdü, yaxud qanunsuz həbs edildi. Sovet rəhbərliyinin xalqın iradəsini, milli azadlıq hərəkatını boğmaq niyyəti baş tutmadı. Bu yolda ilk şəhidlərini verən xalqımız milli azadlıq mübarizəsini davam etdirərək müstəqilliyə qovuşdu.

Qanlı 20 Yanvar faciəsindən 29 il ötsə də, həmin gün şəhid olan oğul və qızlarımızın xatirəsi istər respublikamızda, istərsə də xaricdə yaşayan soydaşlarımız tərəfindən hər il hörmət və ehtiramla anılır. Çıxışlarda 20 Yanvar faciəsinin Azərbaycan xalqının milli azadlıq mübarizəsi tarixində mühüm yerinin və rolunun olduğu vurğulanıb.

Qeyd olunub ki, bu qanlı hadisəyə ilk və ən kəskin münasibəti məhz xalqımızın Ümummilli lideri, həmin dövrdə Moskvada yaşayan Heydər Əliyev bildirib. Ulu öndər Heydər Əliyev Özünün və ailə üzvlərinin həyatının təhlükə altında olmasına baxmayaraq, kəskin bəyanatla çıxış edərək Sovet İttifaqı rəhbərliyini Bakıda qanlı qırğın törətməkdə ittiham edib.

Eyni zamanda, Ulu öndər Heydər Əliyevin 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda həm də Milli Məclisə hadisəyə tam hüquqi-siyasi qiymət verməsi tövsiyə olunurdu. Bu qiymət xalqımızın müstəqillik yolunda çarpışmasının dolğun mənzərəsini əks etdirməli idi. 1994-cü il martın 29-da respublika parlamenti "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edib. Beləliklə, 20 Yanvar faciəsi məhz Ümummilli lider Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz hüquqi-siyasi qiymətini alıb.

# Qusarda 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunmuş anım mərasimi keçirilib





Qusar rayon Heydər Əliyev Mərkəzində 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Mərasimdə faciə qurbanlarının, eləcə də torpaqlarımızın müdafiəsi zamanı şəhid olan bütün qəhrəman vətən övladlarının xatirəsi yad edilib.

Tədbirdə Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şuranın üzvü, YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov, Heydər Əliyev Mərkəzinin direktoru Neva Abdurahmanova, Balaqusar kənd tam orta məktəbinin müəllimi Ceyhun Ağabəyov çıxış edərək 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet ordusunun Bakıda və Azərbaycanın digər bölgələrində törətdiyi qırğınlardan danışıblar.

Vurğulanıb ki, həmin gecə dinc və günahsız insanların sovet qoşunları tərəfindən amansızlıqla qətlə yetirilməsinə baxmayaraq, bu hadisələr xalqımızın azadlıq uğrunda mübarizə əzmini qıra bilməyib.

Tədbirdə məktəblilərin ifasında vətənpərvərlik ruhunda şeirlər səslənib və 20 Yanvar hadisələrindən bəhs edən video-təqdimat nümayiş olunub.

# Fəxriyyə Xələfova: Dubayda ölkəmi ətriyyat kimi eksklüziv sahədə təmsil etdiyimə görə çox şadam



Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində "Azərbaycan Ticarət Evi"nin açılması, bu meydançada Azərbaycan istehsalçılarının təqdimatı çox əlamətdar hadisədir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Dubayda "Azərbaycan Ticarət Evi"nin açılışında iştirak edən, burada öz ətriyyat məhsullarını nümayiş etdirən tanınmış azərbaycanlı rəssam-dizayner, yerli ətirlərin ilk istehsalçısı, Azərbaycanın Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova bildirib.

F.Xələfova deyib ki, artıq müəyyən vaxtdır yerli məhsulların xarici ölkələrdə tanıdılması üçün "Made in Azerbaijan" konsepsiyasının yaradılması istiqamətində böyük işlər gedir, ölkənin İqtisadiyyat Nazirliyinin nəzdindəki Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə çoxlu konsultativ tədbirlər keçirilir. **"Biz istehsalçı qismində bu tədbirlərdə tez-tez iştirak edirik. Burada hər diskussiya ona gətirib çıxarır ki, biz istehsal etdiyimiz məhsulun üzərində onun beynəlxalq reklamı müstəvisində işləyirik. Bununla belə, qablaşdırmanın üzərində hansı məlumatın göstərilməsindən başlayaraq, dizayn və əlbəttə ölkə hüdudlarından kənara çıxdığına görə dünya standartlarına cavab verən məhsulun keyfiyyəti kimi bir çox nüanslar böyük əhəmiyyət kəsb edir",** - deyə F.Xələfova bildirib.

Fəxriyyə Xələfova beş qadın ətrindən ibarət kolleksiyasını Dubayda təqdim etməkdən çox məmnun olduğunu qeyd edib. Bu kolleksiyalardan üçü "Nuray", biri "Caspian Rose", digəri isə "Rosede L'amour" adlanır. Onun sözlərinə görə, ətirlərin hazırlanmasında istifadə edilən bütün notlar Azərbaycan təbiətini, məhz bu diyarda bitən çiçəkləri təcəssüm etdirir. **"Məsələn, Xəzər qızılgülü - dünyanın heç bir ölkəsində olmayan unikal Azərbaycan çiçəyidir. Yaxud al qızılgülümüz - bu xüsusi növdür ki, özünəməxsus, təkraredilməz iyə malikdir. Hələ dahi Nizami bu al qızılgülü tərənnüm edib. Bu səbəbdən də öz ətirlərimi yaradarkən mən məhz Azərbaycan rayihələrindən istifadə edirəm. Birləşmiş Ərəb Əmirliklərinə və ümumiyyətlə ərəb dünyasına gəlincə, bunu deyə bilərəm ki, burada qədim ətir mədəniyyəti mövcuddur və ictimaiyyəti Azərbaycan ətirləri ilə tanış etmək hər iki tərəf üçün faydalı olacaq. Mən öz tərəfimdən ərəb rayihələrini öyrənirəm. Onu da qeyd etmək istərdim ki, Ticarət Evinin açılışına gələn və mənim ətirlərimlə maraqlanan ziyarətçilərə yeni rayihələrlə, yeni çalarlarla tanış olmaq çox maraqlı idi. Rəylər çox müsbət idi, mənim ətirlərimi hamı bəyənirdi, bütövlükdə, kolleksiyama böyük maraq göstərilirdi",** - deyə kolleksiya müəllifi bildirib.

Ətirlərin hazırlanması ilə bağlı fəaliyyətindən danışan Fəxriyyə Xələfova vurğulayıb ki, onların yaradılması üçün ətriyyatçı olmalı və bu sənətin sirlərinə sahib olmalısan. Onun sözlərinə görə, ətriyyatçı olmaqdan ötrü o, bu peşəni öyrənib, bu istiqaməti mənimsəyib. **"Bu sənəti öyrənməkdən ötrü mən Nitsa və Monako arasında yerləşən məşhur ətriyyat mərkəzində - Qrassda əsas biliklərə yiyələnmişəm. Hazırda mən öz ətriyyat şəbəkəmi genişləndirməyi və yeniləri üzərində işləməyi planlaşdırıram. Diqqətəlayiq haldır ki, Azərbaycan Ticarət Evinin açılışında iştirak edən Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iqtisadiyyat naziri Sultan Bin Səid Əl-Mənsurinin irəli sürdüyü bir neçə konseptual ideyanın nəticəsi bizimlə ərəb istehsalçıları arasında inteqrasiyanın zəruriliyini göstərir. Ətriyyat sahəsində xeyli maraqlı birgə layihələr həyata keçirmək olar, əsasən də ətirlərin birgə istehsalı mümkündür. Əgər müştərək istehsala, ətriyyat məhsullarının istehsalına maraq varsa, o zaman müəyyən addımlar atmaq olar. Çünki Dubayın ərazisində və ümumiyyətlə Birləşmiş Əmirliklərdə ətir istehsal edən bir neçə böyük fabrik var və orada peşəkar kadrlar çalışır. Siz bilirsiniz ki, ərəb bazarı parfümeriya məhsulları ilə zəngindir. Ayrı-ayrı istehsalçılar, alıcılar üçün nəzərdə tutulan müxtəlif qiymətlər mövcuddur. Lakin bazarda bolluqdur və əhali üçün ilk yerdə məhz öz məhsulu dayanır. Bu da müsbət amildir ki, vətəndaşlar öz ətirlərinə, öz istehsalına, öz incə rayihələrinə daha çox üstünlük verirlər. Hesab edirəm ki, bu, çox mühümdür, çünki ətir emosional-psixoloji məqamdır və onu istifadə edən şəxsə yaxın olmalıdır. Məsələn, mən özümə emosional cəhətdən yaxın olan ətirləri Azərbaycan qadınları üçün yaradıram, bu səbəbdən də onlar tərəfindən sevilir",** - deyə F.Xələfova vurğulayıb.

BƏƏ-də öz məhsullarının irəlilədilməsi perspektivlərindən danışan F.Xələfova qeyd edib ki, Dubay və ərəb dünyası turizm mərkəzidir, buraya dünyanın hər bir yerindən ziyarətçilər gəlir. **"Mən daim çalışıram ki, ətirlərim bəyənilsin. Mən Dubayda öz ətir stendimin yanımda idim. Müsbət rəyləri qəbul etmək çox xoş idi. Maraqlıdır ki, mənim məhsullarım barədə müsbət rəy bildirənlərin əksəriyyəti ərəblər və digər əcnəbilər idi. Mən istehsalın xüsusi növü sayılan ətriyyat kimi eksklüziv sahədə öz ölkəmi təmsil etdiyimə görə çox şadam. Bu, çox məsuliyyətli işdir. Bu səbəbdən öz çıxışımda qeyd etdim ki, mənim ətrimi alan və istifadə edən alıcılara nə qədər yaxın olduğumu başa düşürəm, sanki bunu hiss edirəm. Mən bu prosesə çox məsuliyyətlə yanaşıram ki, öz brendimə, məhsuluma inam ən yüksək səviyyədə olsun",** - deyə sonda Fəxriyyə Xələfova bildirib.

# Dövlət Komitəsinin sədri Sabunçuda məcburi köçkünlərlə görüşüb



Yanvarın 16-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Bakının Sabunçu rayonu, Pirşağı qəsəbəsində yerləşən Qarabağ sanatoriyasında məskunlaşmış məcburi köçkünlərlə görüşüb, onların vəziyyəti ilə yerində tanış olub.

Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Prezident İlham Əliyevin sosial siyasətində məcburi köçkünlərin problemlərinin həllinin prioritet istiqamət olduğu, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlərin həyata keçirildiyi, yeni yaşayış komplekslərinin inşasının davam etdirildiyi diqqətə çatdırılıb. Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ən ağır şəraitdə yaşayan məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi ilə bağlı verdiyi tapşırığın icrasının sürətləndirilməsi üçün zəruri işin aparıldığı qeyd olunub.

Məcburi köçkünlərin müraciətləri dinlənilib, sualları cavablandırılıb. Köçürülmə ilə əlaqədar müraciət edən məcburi köçkünlərə məlumat verilib ki, əvvəlcə qəzalı şəraitdə, həyat üçün təhlükəli yerlərdə müvəqqəti məskunlaşmış məcburi köçkünlər yeni mənzillərlə təmin edilir.

Görüşdə iştirak edən məcburi köçkünlərin problemlərinin araşdırılması və müvafiq tədbirlərin görülməsi üçün tapşırıqlar verilib.

Dövlət Komitəsi rəhbərliyinin məcburi köçkünlərlə bilavasitə müvəqqəti yaşayış yerlərində görüşləri davam etdiriləcək.

# ADA Universiteti Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə əməkdaşlıq edəcək




ADA Universiteti elm ilə özəl sektor arasında praktiki əlaqələrin genişləndirilməsi istiqamətində daha bir tərəfdaşlıq qurdu.

Bu haqda müvafiq anlaşma memorandumu yanvarın 16-da ADA Universitetinin prorektoru Fariz İsmayılzadə və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin idarə heyətinin sədri Orxan Məmmədov tərəfindən imzalanıb.

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, sənədə əsasən hər iki təşkilat tələbələr arasında biznes ideyalarının formalaşdırılması, innovativ təşəbbüslərin həyata keçirilməsi üçün birgə proqramlar təşkil edəcək. Bununla yanaşı, universitetin elmi potensialından istifadə etməklə sahibkarlığın inkişafı üçün tələb olunan araşdırma, statistika və təhlillər aparılacaq. Nəzərdə tutulan birgə layihələr arasında ixtiraçıların fəallığının artırılmasına dəstək tədbirləri də var. Xüsusilə də ADA Universitetində fəaliyyət göstərən ixtiraçıların təkliflərindən kiçik və orta biznes subyektlərinin yararlanması üçün müzakirə platforması yaradılacaq. Öz növbəsində, ADA-nın bakalavr və magistr pillələrində təhsil alan tələbələr özəl sektorda müxtəlif istehsalat təcrübəsi keçmək imkanından, dissertasiya işlərində agentliyin nümayəndələrinin məsləhətlərindən faydalana biləcəklər.

# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə UNICEF arasında Anlaşma Memorandumu imzalanıb



İcbari tibbi sığorta xidmətlər zərfinin, xüsusilə ana, uşaq və yenidoğulmuşlarla əlaqədar hissənin təkmilləşdirilməsi, xəstəxanalarda doğuş standartlarının təyin edilməsi və onun tətbiqi, pilot layihələr keçirilən regionlarda hamilə qadınlara dəmir və fol turşusunun verilməsi, habelə digər istiqamətlər UNISEF-lə əməkdaşlığımızın prioritet istiqamətlərini təşkil edəcək. Həmin layihələr sınaqdan çıxarılandan sonra onun ölkənin digər doğum evləri və xəstəxanalarında tətbiq edilməsi nəzərdə tutulur.

AZƏRTAC xəbər verir ki, bu sözləri İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev yanvarın 16-da Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) ölkəmizdəki nümayəndəliyi ilə Anlaşma Memorandumu imzalanması mərasimində deyib.

Onun dediyinə görə, memorandum iki qurum arasında əməkdaşlığın çərçivəsini müəyyən edir və ümid etməyə dəyər ki, ölkəmizdə ana və uşaqların sağlamlığının qorunması sahəsində həyata keçirilən tədbirlərin əhatə dairəsinin genişləndirilməsinə öz töhfəsini verəcək.

UNICEF-in Azərbaycandakı nümayəndəsi Edvard Karvardin imzalanma mərasimində öz çıxışında əməkdaşlığın ölkəmizdə aparılan səhiyyə islahatları və icbari tibbi sığorta sisteminin tətbiqinə dəstək göstərəcəyini bildirib. O, İcbari Tibbi Sığorta Agentliyinin xidmətlərin keyfiyyətinə verdiyi əhəmiyyəti dəstəklədiyini və səhiyyə xidmətlərinin hamıya açıq və əlçatan olmasının vacibliyini söyləyib. Qeyd edilib ki, təşkilatın ölkəmizdə fəaliyyət göstərdiyi 25 il ərzində ana və uşaqların qidalanması ilə əlaqədar xeyli irəliləyişlər əldə edilib, istər ana və körpə ölümünün azaldılması, istərsə də poliomielit və malyariya kimi xəstəliklərin kökü kəsilib.

Sonra İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi İdarə heyətinin sədri Zaur Əliyev və UNICEF-in Azərbaycandakı nümayəndəsi Edvard Karvardin tərəflər arasında əməkdaşlığa dair qarşılıqlı Anlaşma Memorandumu imzalayıblar.

Tərəflər arasında imzalanan Memorandum çərçivəsində "Körpə dostu" xəstəxana standartlarının doğum evləri və şöbələrinin standartlarına daxil edilməsi, ilkin səhiyyə xidməti işçilərinin sağlamlıq və qidalanma xidmətlərinə dair bilik və bacarıqlarının artırılması sahəsində Uşaq İnkişafının İzlənilməsi Təlimatı, körpə və erkən yaşlı uşaqların qidalanması üzrə təlimlərin təşkili ilə əlaqədar əməkdaşlıq planlaşdırılır.

# "UNEC-100" İnkişaf Strategiyası: əsas hədəflər



Azərbaycan Dövlət İqtisad Universitetinın (UNEC) "UNEC-100" İnkişaf Strategiyasında 2030-cu ilə qədər reallaşdırılması nəzərdə tutulan 7 strateji məqsəd və 31 strateji hədəf müəyyən olunub.

Universitetdən AZƏRTAC-a bildirilib ki, sənədə görə, "Yüksək keyfiyyətli ali təhsil ocağına çevrilmək", "Tədqiqat universitetinə çevrilmək", "Sahibkar universitetə çevrilmək", "Sosial xidmətlərdə aparıcı universitetə çevrilmək", "Beynəlmiləl universitetə çevrilmək", "Daha çevik və yüksək səmərəliliyə malik universitet idarəetmə sisteminə sahib olmaq", "Yüksək beynəlxalq reytinqli universitetə çevrilmək" strateji məqsədlər kimi təsbit olunub.

Yüksək keyfiyyətli ali təhsil ocağına çevrilmək istiqamətində UNEC-i seçən abituriyentlərin sayını artırmağı, orta keçid balını 500-ə yüksəltməyi, tədris prosesini daim təkmilləşdirməyi, professor-müəllim heyətinin peşəkarlıq səviyyəsini artırmağı, tədrisdə gənc müəllimlərin payını yüksəltməyi, təhsil proqramlarının beynəlxalq akkreditasiya olunmasını, tələbələrin təqaüd imkanlarını artırmağı, onları yataqxana ilə təmin etməyi, ölkədə və regionda ən geniş distant təhsil xidmətləri göstərməyi hədəfləyib.

Strategiyaya əsasən, aparıcı tədqiqat universitetinə çevrilmək istiqamətində UNEC-in hədəfləri dünya təcrübəsinə uyğun magistratura və doktorantura təhsili vermək, yüksək reytinq qazanmış "beyin mərkəzi" yaratmaq, sifariş və qrantlar hesabına tədqiqat layihələri reallaşdırmaq, "Web of Science" və "Scopus" elmi platformalarına daxil olan ən nüfuzlu nəşrlərdə məqalələrin sayını artırmaq və həmin bazalara daxil olan elmi jurnallara sahib olmaqdır.

UNEC-in sahibkar universitet modelini inkişaf etdirmək məqsədilə müəyyənləşdirdiyi strateji hədəfləri startapların, patent müraciətlərinin və kommersiyalaşan patentlərinin, o cümlədən biznes dünyası ilə birgə reallaşdırdığı tədqiqat və innovasiya layihələrinin sayını hər il artırmaqdır.

Sosial xidmətlərdə aparıcı universitet statusu almaq istiqamətində hədəflər milli səviyyəli sosial məsuliyyətlilik layihələri reallaşdırmaq, bilik və təcrübənin cəmiyyətə transfer mexanizmlərini, tələbələrin sosial şəraitini, məzunlarla əlaqəni təkmilləşdirmək, ömür boyu təhsil proqramları üzrə xidmət göstərmək kimi müəyyən olunub.

Beynəlmiləl universitetə çevrilmək və beynəlmiləlləşməni daha da genişləndirmək məqsədilə UNEC-də əcnəbi təhsilalanların payının artırılması, beynəlxalq mübadilə proqramlarında daha çox tələbə, müəllim və inzibati heyətin iştirakının təmin edilməsi, beynəlxalq ikili diplom, o cümlədən ingilis dilində təhsil proqramlarının sayının davamlı artırılması hədəflənib.

Strategiyaya uyğun olaraq, daha çevik və yüksək səmərəliliyə malik universitet idarəetmə sisteminə sahib olmaq məqsədilə UNEC-də strateji idarəetməni tam şəkildə tətbiq etmək, insan resursları, informasiya resursları və maliyyənin idarəedilməsində səmərəliliyi davamlı yüksəltmək, universitet idarəetmə strukturunu optimallaşdırmaq hədəflər kimi müəyyən edilib.

Görülən tədbirlər nəticəsində UNEC-in 100 illik yubileyinə qədər dünyanın ən yaxşı 500 universitetindən birinə çevrilməsi nəzərdə tutulub.

# Fövqəladə Hallar Nazirliyi gücləndirilmiş iş rejimində çalışacaq




Fövqəladə Hallar Nazirliyinin (FHN) aidiyyəti qəza-xilasetmə qurumları və regional mərkəzləri yanvarın 17-18-də gücləndirilmiş iş rejimində çalışacaq.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun xəbərdarlığına əsasən, Abşeron yarımadasında, Xəzər dənizi akvatoriyasında və respublikamızın rayonlarında gözlənilən təhlükəli hidrometeoroloji hadisə ilə əlaqədar vətəndaşların həyat və fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi, mühüm əhəmiyyətli obyektlərdə baş verə biləcək fövqəladə hadisələrin və qəzaların vaxtında aşkarlanaraq qarşısının alınması, onların mümkün nəticələrinin operativ qaydada aradan qaldırılması işinin təşkili məqsədilə FHN-in aidiyyəti qəza-xilasetmə qurumları və regional mərkəzləri yanvarın 17-18-də gücləndirilmiş iş rejimində çalışacaq.

Bununla əlaqədar fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov tərəfindən müvafiq əmr imzalanıb.

# Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində operativ qərargah yaradılıb

Yanvarın 16-da nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə yanvarın 16-18-nə proqnozlaşdırılan hava şəraiti ilə əlaqədar nazirliyin tabeliyindəki qurumların rəhbərləri ilə görüş keçirib. Nazirin rəhbərliyi ilə operativ qərargah yaradılıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin ictimaiyyətlə əlaqələr sektorundan AZƏRTAC-a bildirilib ki, görüşdə əhalinin nəqliyyat, telekommunikasiya, poçt, o cümlədən internet, mobil rabitə xidmətləri, radio-televiziya yayımı ilə fasiləsiz şəkildə təmin edilməsinə dair müəssisə rəhbərlərinə tapşırıqlar verilib.

Həmçinin nəqliyyat və rabitə obyektlərinin mühafizəsinin, yanğın təhlükəsizliyinin, eləcə də açıq havada işləyən işçilərin təhlükəsizliyinin təmin edilməsi üzrə müvafiq tədbirlər görülməsi barədə də göstəriş verilib.

Qəza xidmət briqadaları hazırlıq vəziyyətinə gətirilib və növbətçi hissələr təşkil edilib.

AZƏRBAYCAN RESPUBLİKASI
NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

# <u>Zimbabve Prezidenti</u>: Ölkəmiz Azərbaycanla əməkdaşlıqda çox maraqlıdır



Zimbabve Prezidenti Emmerson Mnanqaqva hesab edir ki, onun Azərbaycanın lideri İlham Əliyevlə Bakıda keçiriləcək danışıqları məhsuldar olacaq. Bunu Prezident Emmerson Mnanqaqva Azərbaycana səfəri ərəfəsində Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC üçün Mixail Qusmana verdiyi müsahibəsində bəyan edib.

AZƏRTAC xəbər verir ki, bundan əvvəl Zimbabve Prezidentinin Bakıya səfər edəcəyi məlum olub. O vurğulayıb: **"Mən cənab İlham Əliyevlə görüşümü səbirsizliklə gözləyirəm. Danışıqların məhsuldar olacağını hesab edirəm".**

Zimbabve Prezidenti Emmerson Mnanqaqva əlavə edib ki, azərbaycanlı həmkarı İlham Əliyevlə kənd təsərrüfatı və neft-qaz sahələrində ikitərəfli əməkdaşlığın inkişafı məsələlərini müzakirə edəcək.

E.Mnanqaqva Azərbaycan haqqında çoxlu məlumata malik olduğunu da diqqətə çatdırıb. **"Bu ölkənin zəngin tarixi, mədəniyyəti var, iqtisadiyyatı sürətlə inkişaf edir. Ona görə bizim ölkəmiz Bakı ilə əməkdaşlıqda çox maraqlıdır. Ümidvaram ki, bu sahələrdə ölkələrimiz arasında mövcud olan əməkdaşlıq imkanları həyata keçiriləcək",** -deyə Zimbabve Prezidenti vurğulayıb.

Zimbabvenin dövlət başçısı daha sonra qeyd edib: **"Zimbabve Azərbaycanla əməkdaşlığın inkişafında çox maraqlıdır və biz bu istiqamətdə mühüm addımlar atırıq. Belə ki, bu gün ölkələrimiz neft-qaz sahəsində və kənd təsərrüfatında qarşılıqlı anlaşma haqqında memorandumun üzərində iş aparırlar".**

E.Mnanqaqva onu da bildirib ki, bu sənəd yaxın vaxtlarda imzalanacaq.

# Kənd təsərrüfatı texnikasının yeni qaydalarla satışına başlanılıb





Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) kənd təsərrüfatı texnikasının güzəştli şərtlərlə satışı üzrə yeni qaydaların tətbiqinə başlayıb.

Kənd Təsərrüfatı Nazirliyinin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, agentliyin vəsaiti hesabına kənd təsərrüfatı texnikasının ilk güzəştli satışı həyata keçirilib. Satış Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə təsdiqlənmiş yeni qaydalara uyğun aparılıb.

Kənd təsərrüfatı müəssisəsi gömrük dəyəri 172 min manat olan texnikanı təchizatçıdan 68 min 800 manata, yəni dəyərinin 40 faizi güzəşt olunmaqla əldə edib. Müəssisə satış məbləğinin 20 faizi həcmində ilkin ödəniş həyata keçirib. Alıcı satış məbləğinin qalan hissəsini təchizatçıya agentliyin vəsaiti hesabına müvəkkil kredit təşkilatından götürdüyü güzəştli kreditlə ödəyib. Texnika alıcısı krediti 5 il müddətinə faizsiz olaraq geri qaytaracaq. Kreditin faizləri isə AKİA tərəfindən aybaay müvəkkil kredit təşkilatına ödənəcək.

Ölkə Prezidentinin Fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə qaydası"na görə, kənd təsərrüfatı texnikalarının və damazlıq heyvanların güzəştli şərtlərlə satışını artıq AKİA həyata keçirir. Həmin Fərmanadək bu səlahiyyətlər Kənd Təsərrüfatı Nazirliyinin digər tabeli qurumu olan "Aqrolizinq" ASC-də idi.

Yeni qaydalara uyğun olaraq, kənd təsərrüfatı texnikası və damazlıq heyvanların güzəştli şərtlərlə, güzəştli kredit vəsaitindən istifadə ilə istədiyi təchizatçıdan istədiyi müvəkkil kredit təşkilatı vasitəsilə ala bilər.

# Qondarma "Milli şura"nın yanvarın 19-na planlaşdırdığı "mitinq şousu" fiaskoya məhkumdur

*Radikal ünsürlər anlamalıdırlar ki, xalq onları qəbul etmir və bu antimilli düşərgənin heç bir aksiyasını dəstəkləmir*



Ölkəmizdəki radikal müxalifətinin, o cümlədən anti-azərbaycançı qüvvələrin sifarişləri ilə yaradılan qondarma "Milli şura" kimi "təşkilatlar"ın fəaliyyətlərinin hər bir epizodu Azərbaycan cəmiyyətinə bəllidir. Azərbaycan dövlətinin və xalqının milli maraqlarına əks mövqe tutmaq və ölkə mənafeyinə zidd hərəkət etmək bu qüvvələrin "konsepsiya"sına çevrilib. Yeri gəlmişkən qeyd edək ki, qondarma "Milli şura" yanvarın 19-da yenidən öz "ənənəvi mübarizə metoduna" əl ataraq mitinq şousu təqdim etməyə çalışacaq. Budəfəki "mitinq şousu"nun da əvvəlkilərinin acı təkrarına çevriləcəyi isə indidən bəllidir. Əli Kərimli-Cəmil Həsənli tandeminin bu dəfə də mitinq adı altında növbəti fiaskolarını yaşayacaqları şübhə doğurmur.

### QONDARMA "MİLLİ ŞURA" SİYASİ MANİPULYASİYA İLƏ MƏŞĞULDUR...

İlk olaraq onu vurğulamaq yerinə düşər ki, adını "Milli şura" qoyan bu "təşkilat"ın hansı səbəbdən məhz bu adı seçməsi hər kəsə bəllidir. 100 il öncə, XX əsrin əvvəlində milli azadlıq ruhunun yüksəlməsində, milli dövlətçilik ənənələrimizin yaşadılmasında mühüm rola malik olan Milli Şuranın adını mənimsəməklə Cəmil Həsənli-Əli Kərimli dueti siyasi manipulyasiya ilə məşğul olduqlarını açıq şəkildə ortaya qoyurlar. Özləri haqqında Azərbaycan xalqında konkret təsəvvür formalaşdıra bilməyən, illərdir ki, bəlli "konspekt"dən kənara çıxmağı bacarmayan, hətta yeni siyasi innovasiyaları belə mənimsəməyən bu antimilli ünsürlər "Milli şura" adını özlərinə pərdə etməklə 100 il önçəki eyniadlı qurumun kölgəsinə sığınmaq, bu adı siyasi istismara məruz qoymaq istəyirlər. Milli şura adının çətirinin altında gizlənməyə çalışan radikallar deuti bununla həm də öz gücsüzlüklərini ört-basdır etmək, xalq tərəfindən dəstəklənmədiklərini gizlətmək niyyətindədirlər. Hətta "qurum sədri" kimi təqdim edilən Cəmil Həsənlini belə dindirsələr, "Milli şura" adlanan bu qondarma qurumun üzvlərinin adını və ya sayını düz-əməlli bilmir. Nəinki aylardır, hətta illərdir adi bir toplantı keçirmək iqtidarında olmayan bu "şura", sözün əsl mənasında, "syasi meyit"dir. Bunu elə vaxtilə həmin təşkilata üzv olan, oranı tərk edən şəxslər də təsdiqləyirlər. Nəticə etibarı ilə, "Milli şura" adının altında gizlənərək manipulyasiya ilə məşğul olan bu qondarma qurumun hansısa bir aksiya keçirə bilmək gücü yoxdur və radikal ünsürlər fiaskoya məhkumdurlar...

### XALQ DAĞIDICI MÜXALİFƏTİN ANTİ-AZƏRBAYCAN FƏALİYYƏTİNİ PİSLƏYİR

Qeyd edildiyi kimi, bu "mitinq şousu"nun da əvvəlkilərdən fərqlənməyəcəyi, uğursuzluğa düçar olacağı indidən bəllidir. Necə deyərlər, görünən dağa bələdçi lazım deyil. Birmənalı şəkildə vurğulanmalıdır ki, həmin insanlar özlərinin "siyasi çəkilərini" hər kəsdən yaxşı bilirlər. Onlara bəllidir ki, Azərbaycan xalqı radikal ünsürləri nəinki dəstəkləmir, hətta birmənalı şəkildə onların anti-Azərbaycan fəaliyyətini pisləyir. Çünki bu ünsürlərin hər zaman nümayiş etdirdikləri dağıdıcı, milli maraqlara zidd fəaliyyət ermənipərəst, islamofob, anti-azərbaycançı dairələrin tapşırıqlarını yerinə yetirməyə hesablanıb.

Azərbaycanın siyasi palitrasında yoxluqlarını hamıdan qabaq özləri görən, amma bunu həzm edə bilməyən radikal müxalifət partiyaları yalnız sosial şəbəkədəki "fake" simalardan ibarətdir ki, onlar da Əli Kərimlinin gülünc statuslarını "like" etməkdən başqa bir işə yaramırlar.

### ÖLKƏMİZDƏ İNSAN HÜQUQ VƏ AZADLIQLARI, O CÜMLƏDƏN SƏRBƏST TOPLAŞMA AZADLIĞI QORUNUR, TƏMİN EDİLİR

Onu da qeyd edək ki, Azərbaycan hər zaman insan hüquq və azadlıqlarını qoruyan, demokratik prinsiplərə, fikir plüralizminə hörmətlə yanaşan, fərqli fikirlərə dözümlülük nümayiş etdirən bir dövlət kimi tanınır. Azərbaycanın Konstitusiyası dünyanın ən mütərəqqi əsas qanunlarından biridir və Konstitusiyamızın böyük bir hissəsi məhz insan hüquq və azadlıqlarının qorunmasna yönəlib. Ölkəmizdə sərbəst toplaşma azadlığı tam təmin olunur və fərqli siyasi fikirlərə malik insanların aksiya keçirməsinə qanun çərçivəsində şərait yaradılır. O cümlədən müxalifət mövqeyində olan partiya və təşkilatlara mitinq keçirməyə, öz fikirlərini ifadə etməyə imkan yaradılır, müvafiq dövlət qanunları bu mitinqlərin təhlükəsizliyini təmin edir.

Vurğulanmalıdır ki, istər 2018-ci ildə, istərsə də ondan əvvəlki illərdə radikal müxalifət düşərgəsi də ölkəmizdəki bu demokratik mühitdən kifayət qədər yararlanıb, bir sıra mitinqlər təşkil edib, aksiyalar keçiriblər. Lakin keçirilən bu aksiyalar radikal düşərgənin biabırçı ifşasından başqa heç nə ifadə edə bilməyib. Özlərini "siyasi palitra"nın mühüm bir hissəsi kimi qələmə verməyə, bu yolla da xarici antimilli mərkəzlərdən pul mənimsəməyə çalışan radikal ünsürlər həmin aksiyalara on minlərlə adamın qatılacağını "vəd etsələr də", nəticədə həmin mitinqlərə min nəfərdən artıq adam toplaya bilməyiblər. Bu isə onların xalq tərəfindən dəstəklənmədiyinin sübutudur. Azərbaycan xalqı hər zaman bu cür xəyanətkarların layiqli cavabını verib və yanvarın 19-da da onların eyni aqibətə məruz qalacağını indidən proqnozlaşdırmaq mümkündür...

**Pərviz SADAYOĞLU**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Regionlarda heyvandarlığın inkişafına hərtərəfli dəstək verilir

*Bölgələrdə aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər heyvandarlıqda istehsalın artmasına da öz müsbət təsirini göstərib*



Dünyada yaranan çağırışlara uyğun olaraq Azərbaycan özünün etibarlı ərzaq təhlükəsizliyini təmin etməyi strateji hədəf kimi qarşıya qoyub. Bu məqsədlə regionlarda aqrar sektorun ahəngdar inkişafını təmin etmək, ərzaq məhsulları, o cümlədən də heyvandarlıq məhsullarının istehsalını artırmaq üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Heyvandarlıq təsərrüfatlarında intensiv metodların tətbiqi, yem bazasının möhkəmləndirilməsi, səmərəli satış mexanizminin qurulması, fermerlərə subsidiyaların verilməsi, ayrı-ayrı bölgələrdə layihələrin reallaşdırılması bu qəbildən olan tədbirlər sırasında yer alır.

Qeyd edək ki, Prezident İlham Əliyevin heyvanların cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında müvafiq Sərəncamı bu sahədə işlərə güclü təkan verib. Sərəncama əsasən yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması və bu sahəyə marağın gücləndirilməsi üçün süni mayalanma yolu ilə alınan hər baş buzova görə heyvan sahibinə dövlət büdcəsindən 100 manat subsidiya verilir.

Bölgələrdə bu sahənin inkişafına gəlincə, Ağsu heyvandarları yenicə yola saldığımız 2018-ci ili uğurla başa vurublar. Rayonda aqrar sektorun aparıcı sahələrindən olan heyvandarlıqda dinamik artım davam edir. Rayon Statistika İdarəsindən bildirilib ki, 2018-ci ildə diri çəkidə 5012 ton ət, 30 min 165 ton süd, 8 milyon 369 min ədəd yumurta, 308 ton yun istehsal olunub. 2017-ci illə müqayisədə ət istehsalı 20 ton, süd 155 ton, yumurta 466 min ədəd, yun 2 ton artıb. Xüsusilə Ərəbmehdibəy, Ərəbsarvan, Gəgəli, Kəndoba, Qaraqoyunlu və bir sıra digər ərazi vahidlərində fermerlər və fiziki şəxslər heyvandarlıq məhsulları istehsalında daha yaxşı nəticələrə nail olublar.

Bərdə rayonunda da ötən il heyvandarlığın intensiv inkişafı, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilib. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə, heyvandarlıq məhsulları istehsalının intensiv artmasına zəmin yaradan cins maldarlığın inkişafı üçün heyvanların süni mayalanması uğurla həyata keçirilir. Əldə edilən yüksək nəticələr, həmçinin süni mayalanmadan alınan hər buzova görə fermerlərə 100 manat subsidiya müəyyənləşdirilməsi süni mayalanma tədbirlərinə marağı artırıb. Rayonda fəaliyyət göstərən süni mayalanma texnikləri tərəfindən 2018-ci ildə 7838 baş inək və düyə süni yolla mayalandırılıb, 4570 baş sağlam cins buzov alınıb. Mayalanma zamanı əsasən "Holştein-friz", "Simmental", "Şvis" və "Şarole" cinslərindən olan buğaların toxumları istifadə edilir.

İsmayıllı rayonunda isə 2018-ci ildə heyvan sahiblərindən 1246 nəfərə süni mayalama yolu ilə alınmış 1681 baş cins tərkibi yaxşılaşdırılmış buzova görə 168 min 100 manat subsidiya verilib. Cins tərkibi yaxşılaşdırılmış buzova görə verilən subsidiyanın məbləği 2017-ci illə müqayisədə 47 min 100 manat çoxdur.

Qeyd edək ki, son illər bölgədə mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, daha məhsuldar heyvanlarla əvəz edilməsi istiqamətində ardıcıl iş aparılır. Bunun üçün süni mayalanmanın imkanlarından istifadə olunur. Təkcə ötən il 3787 baş iribuynuzlu mal-qarada süni mayalama aparılıb ki, bu da 2017-ci ildəkindən 153 baş artıqdır.

Azərbaycan Prezidenti İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 7 aprel tarixli Sərəncamının icrası çərçivəsində isə 2018-ci ildə Qax rayonunda 47 aztəminatlı ailə aktiv əmək bazarına cəlb olunaraq özünüməşğulluq imkanlarına yiyələnib. Qax rayon Məşğulluq Mərkəzindən bildirilib ki, "Öz biznesinə başla və təkmilləşdir" layihəsi çərçivəsində keçirilən təlimlərdə iştirak edən bu şəxslər əsasən, məcburi köçkün və şəhid, həmçinin aztəminatlı, çoxuşaqlı, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, əlilliyi olanlardır. Proqram çərçivəsində heyvandarlıqla məşğul olmaq istəyən 33 ailənin hər birinə 2 baş yanı balalı, iribuynuzlu, 10 ailənin hər birinə isə 21 baş xırdabuynuzlu heyvan təqdim olunub. Bundan əlavə, 2 nəfərin hər birinə 15 arı ailəsi, 2 nəfər şirniyyatçı qadına isə zəruri avadanlıq verilib. Bu ailələr artıq öz kiçik biznes təsərrüfatlarını yaradıblar.

Qurumdan verilən məlumata görə, "Öz biznesinə başla və təkmilləşdir" layihəsi çərçivəsində keçirilən təlimlərdə iştirak edən daha 9 nəfərə də yaxın vaxtlarda aktivlər təqdim olunacaq. Qeyd edək ki, 2018-ci ildə rayon Məşğulluq Mərkəzində 719 nəfər işaxtaran kimi qeydiyyata alınıb. Qurum tərəfindən ötən il 303 işaxtaran vətəndaş müvafiq işlə təmin olunub, 17 nəfər isə peşə hazırlığı kursuna cəlb edilib.

Onu da bildirək ki, 2018-ci ildə Qax rayonunda 3687 baş inək və düyə süni yolla mayalandırılıb. Bu, əvvəlki illə müqayisədə 371 baş çoxdur. Süni mayalama yolu ilə alınan buzovların sayı isə 2017-ci illə müqayisədə 716 baş artaraq 2497 baş olub. Qax Dövlət Aqrar İnkişaf Mərkəzinin heyvandarlıq sektorunun məsləhətçisi Vidadi Məmmədov bildirib ki, ötən il Qax rayonu üzrə 2093 nəfər heyvan sahibinə süni mayalama yolu ilə alınan 2418 baş cinsi yaxşılaşdırılmış buzova görə 241 min 800 manat subsidiya hesablanıb. Subsidiyanın 167 min 700 manatı ilin sonunadək heyvan sahiblərinə ödənilib. Qalan 74 min 100 manat vəsaitin bu ilin birinci rübü ərzində ödənilməsi təmin ediləcək. Qeyd olunub ki, Azərbaycan Prezidentinin "Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" 2015-ci il 19 avqust tarixli Sərəncamının icrası olaraq, son 3 ildə Qax rayonunda 9331 baş inək və düyə süni yolla mayalandırılıb. Həmin müddətdə süni mayalama yolu ilə alınan 3946 baş cinsi yaxşılaşdırılmış buzova görə heyvan sahiblərinə hər buzova görə 100 manat olmaqla, ümumilikdə 394 min 600 manat subsidiya ödənilib.

Kənd təsərrüfatının aparıcı sahələrindən olan heyvandarlığın inkişafına göstərilən dövlət dəstəyi Göyçay rayonunda da fermerlərin, eləcə də fərdi təsərrüfat sahiblərinin bu sahəyə marağını artırıb. Göyçay Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, indi hər kəs mal-qaranın cins tərkibinin dəyişdirilərək daha məhsuldar heyvanlarla əvəz edilməsində maraqlıdır və bu sahədə süni mayalanmanın imkanlarından istifadə edirlər. Hər buzova görə 100 manat subsidiyanın verilməsi də fermerlərin heyvanların süni mayalanmasına marağını daha da artırıb. Təkcə yola saldığımız 2018-ci ildə rayonda 4034 baş qaramalda süni mayalama aparılıb, 2269 baş cinsi yaxşılaşdırılan buzov doğulub. Bu göstərici ötən illə müqayisədə müvafiq olaraq 588 baş və 508 baş çoxdur.

Saatlı rayonunda da kənd təsərrüfatının digər sahələri ilə yanaşı, heyvandarlığın inkişafına da xüsusi diqqət yetirilir. Rayonda bu sahənin inkişafını daha da sürətləndirmək, heyvandarlıq məhsulları istehsalını artırmaq məqsədilə yeni-yeni təsərrüfatlar yaradılır, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir. Həyata keçirilən tədbirlər nəticəsində heyvanların baş sayı, ət, süd və yun istehsalı ilbəil artır. Rayon Statistika İdarəsindən verilən məlumata görə, hazırda ayrı-ayrı heyvandarlıq və fərdi təsərrüfatlarda 66 min 363 baş iribuynuzlu heyvan və 117 min 662 baş qoyun-keçi saxlanılır. Təsərrüfatlarda mal-qara və davarların baş sayının artırılması ət, süd və yun istehsalına da güclü təkan verib. Yola saldığımız 2018-ci ildə rayonda 7 min 20 ton ət (diri çəkidə), 41 min 478 ton süd və 156 ton yun istehsal edilib ki, bu da inişilkindən xeyli çoxdur.

Ötən il Şəkinin heyvandarlıq kompleksində isə süd istehsalı 30 faizə yaxın artıb. Şəki rayonunun Orta Zəyzid kəndi ərazisində fəaliyyət göstərən "ASK Heyvandarlıq" MMC-nin südlük-maldarlıq üzrə özəl heyvandarlıq təsərrüfatında olan inəklərin hər birindən 2018-ci ildə 6 min 935 kiloqram süd sağılıb. Bu göstərici əvvəlki illə müqayisədə 365 kiloqram çoxdur. Gün ərzində hər inəkdən orta hesabla 19 kiloqram süd sağılıb. Bu barədə məlumat verən Şəki Dövlət Aqrar İnkişaf Mərkəzinin heyvandarlıq sektorunun müdiri Nazim Rəcəbov bildirib ki, ötən il bu müəssisədə 4 min 64 ton süd istehsal olunub. Bu, əvvəlki illə müqayisədə 930 ton və ya 29,7 faiz çoxdur. Hazırda təsərrüfatda saxlanılan 1321 baş iribuynuzlu mal-qaranın 586 başı ana maldır. Ana malın sayı əvvəlki illə müqayisədə 109 baş artıb. Ötən il müəssisədə 621 baş, yəni inişilkindən 60 baş çox buzov doğulub.

Xatırladaq ki, 2008-ci ildə dövlətin maliyyə dəstəyi ilə yaradılan bu heyvandarlıq kompleksinə fermalar, sağım sexi, laboratoriya və yardımçı tikililər daxildir. Kompleksdə alman şirkətinin istehsal etdiyi bir mərkəzdən idarə olunan ən müasir avadanlıq quraşdırılıb. Sağım sexində quraşdırılan avadanlığın köməyi ilə bir dəfəyə 32 baş inəyin südünün ətraf mühitlə təması olmadan sağılması, toplanması, soyudulması və saxlanması mümkündür.

Neftçala rayonunda da aqrar sektorun digər sahələri ilə yanaşı, heyvandarlığın inkişafına da xüsusi diqqət yetirilir. Rayonda heyvandarlıq məhsullarının istehsalını artırmaq məqsədilə hər il yeni-yeni təsərrüfatlar yaradılır ki, bu da öz növbəsində ət və süd istehsalının və mal-qaranın baş sayının artmasına səbəb olur. Son illər rayonda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində də xeyli iş görülüb. Bu məqsədlə xarici ölkələrdən yüzlərlə baş ətlik və südlük istiqamətli düyələr gətirilib, süni mayalama məntəqələrinin şəbəkəsi genişləndirilib. Rayon Statistika İdarəsindən verilən məlumata görə, hazırda Neftçalada 8 süni mayalama məntəqəsi fəaliyyət göstərir. Ötən il bu məntəqələrin mütəxəssisləri tərəfindən süni yolla mayalandırılan 3 min 56 baş inək və düyədən 2 min 55 baş cinsi yaxşılaşdırılmış buzov alınıb. Bu da 2017-ci ildəkindən 476 baş çoxdur. Mayalanma aparılmış hər 100 baş inəyə 71 bala düşüb.

Yuxarı Qaramanlı kəndində fəaliyyət göstərən fermer İlkin Əsgərovun sözlərinə görə, süni mayalama yolu ilə alınan buzovlar rayonun iqlim şəraitinə tez uyğunlaşır. Bu heyvanların həm diri çəkisi, həm də südü 3-4 dəfə çox olur.

İmişlinin heyvandarlıq təsərrüfatlarında isə 255 min baş qoyun-keçi saxlanılır. Hazırda rayonun ayrı-ayrı heyvandarlıq və fərdi təsərrüfatlarında 95 min 62 baş iribuynuzlu mal-qara və 254 min 979 baş qoyun-keçi saxlanılır. Bu da 2017-ci illə müqayisədə ümumilikdə 551 baş çoxdur. Təsərrüfatlarda mal-qara və davarların baş sayının artırılması ət, süd və yun istehsalına da güclü təkan verib və məhsul istehsalında artım olub. Ötən il rayonda 13 min 429 ton ət (diri çəkidə), 49 min 632 ton süd, 392 ton yun istehsal olunub. 2017-ci illə müqayisədə süd istehsalında 2 ton, yun istehsalında isə 13 ton artım qeydə alınıb.

**Nardar BAYRAMLI**

# Təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.

AZƏRTAC xəbər verir ki, yanvarın 16-da "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Sabunçu rayonu, Sülh küçəsi 14/1, 14/2 ünvanında 1000 nəfərə yaxın sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti də nəzərə alınıb və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə ərazidə idman qurğuları, uşaqlar üçün xüsusi örtüklü əyləncə mərkəzi quraşdırılıb, 4 ədəd söhbətgah və oturacaqlar qoyulub. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmlədirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac əkilib və 700 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Sabunçu rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan on beşinci həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Gözlənilən ifrat təhlükəli hidrometeoroloji hadisə ilə əlaqədar işçilərin həyat və sağlamlığının qorunması üçün zəruri tədbirlər görülməlidir



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti ölkəmizin ərazisində yanvarın 16-dan 17-nə keçən gecədən başlayaraq yanvarın 18-i gündüzədək gözlənilən ifrat təhlükəli hidrometeoroloji hadisə ilə əlaqədar işəgötürənlərə müraciət edərək, qeyd olunan vaxtlarda açıq havada işləyən işçilərin həyat və sağlamlığının qorunması üçün qanunvericiliyin tələblərinə əsasən müvafiq tədbirlərin görülməsi barədə məlumat verib.

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 233-cü maddəsinə əsasən, aşağı temperatur və şiddətli külək şəraitində açıq havada, habelə ilin soyuq vaxtlarında qızdırılmayan qapalı binalarda işləyərkən işçilərə qızınmaq üçün fasilələr verilməli və ya iş dayandırılmalıdır.

Məcəlləyə 2-ci əlavəyə əsasən, küləyin gücü 6 bal və daha artıq olduqda, quruda kranlarla görülən bütün növ işlər, tikinti işləri görülərkən küləyin gücü 2 baldan artıq olduqda kranlar qurulması üzrə quraşdırma, 3 baldan artıq olduqda qaldırıcıların quraşdırılması və sökülməsi, daşınan taxta-şalbanın yerinin dəyişdirilməsi işləri, 6 baldan artıq olduqda taxta-şalban işi, habelə taxta-şalbanın sökülməsi işləri dayandırılmalıdır.

Dənizdə işləyərkən küləyin gücü 3 baldan çox olduqda qaynaq tikişinin şaquli və tavan vəziyyətində qoyulduğu bütün növ qaynaq, 4 baldan çox olduqda ayrı-ayrı özüllərdə kran gəmiləri vasitəsilə görülən tikinti-quraşdırma və sökmə, daimi dəniz özülləri və estakadayanı meydançaları yanındakı buxtalarda barjlara, kran gəmilərinə yükvurma və yükboşaltma işlərinin, qaynaq tikişi aşağı vəziyyətdə qoyulduğu bütün növ qaynaq işlərinin, estakada tikən kranla quraşdırma və dəniz neft-mədən qurğularının sökülməsi işlərinin dayandırılması təmin edilməlidir.

Dənizdə işləyərkən küləyin gücü 5 baldan artıq olduqda isə ayrı-ayrı özüllərdə üzən vasitələr, qurğular olmadan tikinti-quraşdırma və sökmə, kopyor vasitəsilə dayaqlar vurulması, daimi dəniz özüllərində buruqların quraşdırılması, sökülməsi və dorların qaldırılması (endirilməsi), traversin sürgü qollarının, mancanaq dəzgahının asma kanatının təmiri və dəyişdirilməsi, buruqda və ya dorda diyircəklərin, kran-blokun dəyişdirilməsi, tali kanatının təchizatı, dərinlik ölçmələri və quyuların debitinin ölçülməsi, estakada meydançalarında quyuların cari və əsaslı təmiri üçün səyyar aqreqatların dorlarının qaldırılması işləri dayandırılmalıdır.

Küləyin gücü 6 baldan artıq olarsa, daimi dəniz özüllərində istismar edilən quyularda işləri, daimi dəniz özüllərində estakadayanı meydançalarda quyuların əsaslı və cari yeraltı təmir işlərini, 8 baldan çoxdursa, qazma işləri aparılan quyularda alətlərin quyulardan qaldırılması ilə əlaqədar bütün işləri, özülün və ya estakadayanı meydançanın döşəməsi üstündəki və altındakı işləri dayandırmaq tələb olunur.

Əgər küləyin gücü 10 baldan artıq olarsa, quyunun yuyulması işlərindən başqa buruqda bütün işlərin dayandırılması təmin edilməlidir.

İşlərin dayandırılması zamanı işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı ilə fasilənin sayı, müddəti müəyyənləşdirilməli, iş zamanı verilmiş fasilələr iş vaxtına daxil edilməli və bu fasilələr zamanı da əməkhaqqı işçilərin tarif maaşına görə ödənilməlidir. İş dayandırıldıqda boşdayanma vaxtının haqqının işçinin təqsiri səbəbindən baş verməyən boşdayanma kimi və tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilməsi təmin edilməlidir.

# Azercell-in yeni konseptli xidmət mərkəzi indi Bakı Beynəlxalq Avtovağzalında




Azərbaycanın mobil rabitə bazarının lideri "Azercell Telekom" MMC müştərilərin rahatlığını düşünərək, Bakı Beynəlxalq Avtovağzalında yeni konseptli xidmət mərkəzini istifadəyə təqdim edib. Yanvar ayının 15-dən etibarən abunəçilər burada bütün Azercell xidmətlərindən yararlana, nömrələr üzərində müvafiq əməliyyatlar apara, eləcə də şirkətin tarif və kampaniyaları haqqında ətraflı məlumat əldə edə biləcəklər. Həmçinin Azercell-in yeni xidmət mərkəzində yanvar ayının 15-dən etibarən 7 gün ərzində smartfon alan hər kəs 150 AZN dəyərində hədiyyə balansı əldə edəcək.

Qeyd edək ki, Azercell ölkə üzrə abunəçilərə xidmət göstərən geniş şəbəkəyə malikdir. Hazırda ölkə üzrə 8 müştəri xidməti ofisi, 1 məkanda 3 növ xidmət göstərən 29 Azercell Ekspress ofisi, 4 yeni konseptli xidmət mərkəzi fəaliyyət göstərir. Bundan əlavə, Azercell-in 20 Eksklüziv mağazası, 3 Asan Mərkəzlərində xidmət göstərən məntəqəsi var. 2018-ci ildə Bakı və bölgələrdə ümumilikdə 16 yeni Eksklüziv mağaza istifadəyə verilib. Onu da bildirək ki, Azercell Müştəri Xidmətləri sahəsində yenilikçi ruhu ilə hər zaman seçilib. Şirkət 1998-ci ildə ölkədə ilk dəfə olaraq 24/7 rejimində fəaliyyət göstərən Telefon Mərkəzi, 2009-cu ildə isə Gəncədə ilk Regional Telefon Mərkəzini yaradıb. Öz abunələrinə yalnız üz-üzə deyil, həm də onlayn şəkildə xidmət göstərən Azercell müştəri məmnuniyyəti sahəsində göstərdiyi uğurlu fəaliyyətinə görə dəfələrlə müxtəlif mükafatlara layiq görülüb.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 6074**

"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**"AZƏRTAC", "Azadinform", "SİA"**
**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul**:
Zahid İLHAMOĞLU